AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Azərbaycan Texniki Universiteti

Publik Hüquqi Şəxsi

**Kredit sistemi ilə təhsil alan tələbələr üçün**

# Y A D D A Ş

**Bakı – 2024**

**“O ölkələr inkiş edir ki, orada təhsil yüksək səviyyədədir, yeni texnologiyalar tətbiq olunur.”**

**İlham Əliyev**

**Əziz tələbələr!**

Azərbaycan Texniki Universitetinə (AzTU) qəbul olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edir və yeni uğurlar arzulaylram, məhz bu universiteti seçdiyiniz üçün hər birinizə dərin təşəkkürümü bildirirəm.

Tələbə adını qazanmaqla özünüzü ona görə xoşbəxt hesab edə bilərsiniz ki, ölkəmizin dövlətçilik tarixi ilə sıx bağlı olan, müasir cəmiyyətdə aparıcı mövqeyi ilə seçilən bu ali təhsil ocağında təhsil almağınız həyatınızın bu məhsuldar çağında ən düzgün seçimdir.

Siz ilk növbədə dövlətin qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə hörmətlə yanaşan, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, məntiqi, tənqidi, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət kimi yetişməyiniz üçün çox yaxşı fürsət qazanmısınız.

Yaşadığımız informasiya cəmiyyətində əsas şərt kimi insan kapitalının inkişafı ölkəmizin təhsil konsepsiyasının başlıca istiqamətlərindən biridir. **“Təhsil millətin gələcəyidir”** deyən ulu

öndər Heydər Əliyevin təhsilə olan xüsusi diqqət və qayğısı, eyni zamanda qlobal çağırışlar fonunda təhsil sahəsində aparılan uğurlu islahatların bugünki nəticəsi kimi, ölkəmizdə müasir təhsil mühiti formalaşdırılmış, ali təhsil sistemi beynəlxalq və Avropa ali təhsil məkanına inteqrasiya olunmuşdur.

Bu bir həqiqətdir ki, Siz AzTU-da Boloniya prosesi əsasında kredit sistemi ilə təhsil alacaq və yığdığınız kreditlər əsasında Avropanın istənilən ali məktəbində təhsilinizi davam etdirə biləcəksiniz.

Məhz Sizə yardımçı olmaq üçün hazırlanmış bu yaddaş kitabçasında Bolonya prosesinin əsas xüsusiyyətləri,ali təhsildə kredit sisteminin mahiyyəti, onun üstünlükləri və s. barədə zəruri məlumatlarla daha yaxından tanış olacaqsınız. Ümidvaram ki, burada Sizi maraqlandıran mühüm suallara cavab tapacaqsınız.

Ali texniki təhsilinizi uğurla başa vurub, yüksək ixtisaslı kadr kimi müzəffər ölkəmizdə və onun hüdüdlarından kənarda Universitetimizi layiqincə təmsil edəcəyinizə inanıram, bu şərəfli yolda Sizə uğurlar diləyirəm!

**Hörmətlə,**

**Azərbaycan Texniki**

**Universitetinin**

**Rektoru, t.e.d., prof.** **V.Vəliyev**

# ALİ TƏHSİLDƏ KREDİT SİSTEMİ

## 1.Kredit sisteminin mahiyyəti

Kredit sistemi ali təhsildə tətbiq olunan fənn bitirmə və kurs bitirmə kimi iki əsas sistemdən biridir. Keçmiş sovet məkanında və bir sıra ölkələrdəki kurs bitirmə sistemindən fərqli olaraq kredit sistemi bilavasitə fənn keçməyə əsaslanan bir sistemdir.

Hazırda dünyada əsasən 2(iki) akademik kredit sistemi daha geniş yayılmışdır:

1.USCS – ABŞ Kredit sistemi (United States Credit System).

2.ECTS – Avropa Kredit transfer sistemi (European Credit Transfer System).

**Birinci sistem** (ABŞ Kredit Sistemi), XX əsrin əvvəllərindən tətbiq olunur və semestrdə 15-18 kredit qazanmaq imkanı verir. ABŞ-da adətən qrup həftədə 3 saat mühazirə və ya müzakirə keçirsə bu o deməkdir ki, bakalavrın 1 kredit saatı 1 saatlıq mühazirə və 2 saatlıq ev işinə bərabərdir. Bakalavr üçün semestrdə orta tədris yükü 15 kreditə (vahidə) bərabərdir ki, bu da 45 saat dərsdə iştirak və oxumaq deməkdir.

**İkinci sistem** isə (Avropa Kredit Transfer Sistemi) XX əsrin 80-ci illərindən tətbiq olunmağa başlanmışdır və semestrdə 30-33 kredit qazanmaq imkanı verir.

Dünyanın müxtəlif ölkələrində kredit sisteminin tətbiqi də müxtəlifdir. Burada Universitetin «semestr» yoxsa «kvartal» sistemləri üzrə işləmələri də mühüm əhəmiyyət kəsb edir. Əksər Universitetlərdə tədris ili «Payız» (16 həftə) və «Yaz» (17 həftə) semestləri (Azərbaycanda isə hər iki semestr 15 həftədən ibarətdir) olmaqla 2 hissəyə bölünür. 8-10 həftəlik «Yay sessiyası» deyilən bir tədris müddəti də tətbiq olunur. Azərbaycanda «Yay semestrinin» müddətinin 6 həftəyədək olması nəzərdə tutulmuşdur.

## 2.Kredit sisteminin tətbiq olunduğu ölkələr

Kredit sistemi ABŞ-da, dünyanın bir çox ölkəsində və Avropanın 40-dan çox ölkəsində tətbiq edilir. 19 may 2005-ci ildə Norveçin Bergen şəhərində keçirilən konfransda Azərbaycan Respublikası da Boloniya prosesinə qoşulmuşdur. 2006/2007-ci dərs ilindən başlayaraq Azərbaycan Respublikası Təhsil

Nazirliyinin tövsiyəsi ilə ölkəmizin bir çox universitetlərində, o cümlədən bizim Universitetdə də kredit sistemi tətbiq olunmağa başlanmışdır. Əvvəlcə AzTU-nun «Radiotexnika və rabitə» fakültəsində tətbiq olunmuş, sonra isə digər fakültələr də bu sistemə keçirilmişdir. 2010-cu ildən ölkəmizin bütün ali məktəblərində bu sistemə keçid prosesi başa çatmışdır.

**3.Kredit sisteminin üstünlükləri**

Boloniya prosesinin əsasında Avropada vahid təhsil məkanı yaradılır. Bunun nəticəsində gələcəkdə ölkələr arasında tələbə mübadiləsi və diplomların qarşılıqlı tanınması asanlaşacaqdır.

Boloniya prosesi aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

1. ikipilləli (bakalavr və magistr) təhsil sisteminin tətbiqi;
2. kredit sisteminin tətbiqi;
3. təhsilin keyfiyyətinə nəzarət;
4. tələbələrin və müəllimlərin mobilliyinin genişləndirilməsi;
5. məzunların işə düzəlməsinin təmin olunması;
6. Avropa təhsil sisteminə cəlb olunmanın təminatı;
7. Təhsilin sosial yönümlülüyünün təmin edilməsi (ömürboyu təhsil).

Kredit sistemi aşağıdakı səciyyəvi xüsusiyyətlərə malikdir:

-kredit sisteminə görə bakalavr təhsil pilləsində təhsil müddəti bir qayda olaraq hər biri 2 semestrdən ibarət olmaqla 4 ildən ibarətdir. Zəruri hallarda Universitet rəhbərliyi bir təhsil ili ərzindəki mövcud 2 semestrə «yay semestri» adlanan üçüncü bir semestr də əlavə edə bilər;

-bu sistem təhsildə daha yüksək göstəricilərə nail olmaq üçün stimul yaradır. Başqa sözlə, istedadlı tələbələrə yuxarı kurslardan fənn götürməklə bakalavr təhsilini 1 və ya 2 semestr tez başa vurmaq imkanı verir. Həmçinin təhsil aldığı ixtisasa yaxın ixtisaslardakı müvafiq fənlərə yiyələnmək istəyən tələbə üçün də imkan yaranır. Bu da öz növbəsində tələbənin peşəyönümünün və dünyagörüşünün təkmilləşdirilməsinə gətirib çıxarır;

-bu və ya digər səbəbdən hansısa fəndən qeyri-müvəffəq qiymət almış tələbəyə aşağı kursdan qalan fənni təkrar oxumaqla həmin fənni mənimsəmək imkanı qazandırır və tələbə imtahandan müvəffəq qiymət ala bilir. Beləliklə, sistem zəif

tələbənin də potensialını sonuna qədər istifadə etmək üçün şərait yaradır.

-tələbənin bu və ya digər subyektiv münasibətin, təsadüfi halların, şəxsi- qərəzçilik kimi amillərin qurbanı olması hallarını istisna edir;

-bu sistemin tətbiqində əsas şərtlərdən biri də tələbənin dərsə davamiyyətinin məcburi olmasıdır ki, bu da tələbədə intizam və məsuliyyət hissinin artmasını təmin edir.

**4.Kredit sistemi ilə təhsil alan tələbələrin hüquq və vəzifələri**

**4.1.Tələbələrin hüquqları:**

- ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə əsasnamə ilə tanış olmaq;
- müstəqil şəkildə fənni və müəllimi seçmək;
- yuxarı kursdan, eləcə də başqa ixtisasdan (əvvəlki illərdən borcu olmayan və bütün fənlərdən orta göstərici 71-100 bal arasında olan tələbələr üçün) və aşağı kursdan fənn seçmək;
- lazımi çap materiallarını və onların elektron versiyalarını almaq;
- fərdi planlarda dəyişiklik etmək
- Əsasnamənin 3.2 və 3.3 bəndlərinə müvafiq olaraq);
- tədris məsləhətçilərinin (tyutorların) xidmətindən istifadə etmək.

**4.2.Tələbələrin vəzifələri:**

-ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədəƏsasnamənin tələblərinə riayət etmək;

-təhsil müddəti üçün müəyyən olunmuş bütün kreditləri toplamaq;

-növbəti tədris ilinin planını 25 iyun- 10 iyul tarixə qədər dekanlığa təqdim etmək;

-тələbənin fərdi tədris planına ciddi riayət etmək və tədris olunan fənləri lazımi səviyyədə mənimsəmək.

**QEYD: 1.Tələbə tədrisə başlayan kimi «Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nı, «Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi**

**haqqında Əsasnamə»ni və «Kredit sistemi ilə təhsil alan tələbələrin fənnlər üzrə imtahanları haqqında Əsasnamə»ni diqqətlə oxumalıdır.**

**2.Tələbə kredit sistemi ilə təhsil alması və kredit sisteminin mahiyyəti haqqında valideynlərini məlumatlandırmalıdır.**

**Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində əsas(baza) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili**
**Q A Y D A L A R I**
**(Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı təsdiq edilmiş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 iyun 2017-ci il tarixli 257 nömrəli qərarına əsasən əlavə və düzəlişlər edilmişdir)**

## 1. Ümumi müddəalar

1.1.Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 295 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na, "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"na, "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"na və Avropa Kredit Transfer Sisteminə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında bütün ali təhsil müəssisələrinə şamil edilir. Azərbaycan Respublikasında müvafiq qaydada dövlət qeydiyyatına alınmış, fəaliyyətinə lisenziya verilmiş xarici ölkələrin ali təhsil müəssisələri və (və ya) filialları öz ölkələrində

mövcud olan tədrisin təşkili qaydalarını həmin təhsil müəssisələrində tətbiq edə bilərlər.

1.3.Kredit sistemi əsasında təşkil olunmuş tədris prosesinin xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

1.3.1.hər bir təhsilalanın (bundan sonar-tələbənin) fərdi tədris planının olması və onların bu planın tərtib edilməsində iştirak etməsi;

1.3.2.ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq, tədris fənlərinin, semestrlər üzrə kreditlərin miqdarının, təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) seçiminin sərbəstliyinin təmin edilməsi;

1.3.3.təhsil prosesinə akademik məsləhətçilərin (tyutorların) cəlb olunması;

1.3.4.tələbəyə sərbəst iş üçün şəraitin yaradılması;

1.3.5.biliyin qiymətləndirilməsində çoxballı sistemin tətbiq edil-məsi;

1.3.6.hər semestrdə tədris qruplarının fənlər üzrə formalaşdırılması;

1.3.7.**Çıxarılıb;**

1.3.8.tələbə və təhsilverənlərin mobilliyinin təmin olunması;

1.3.9.təhsilalma müddətinin tələbənin nailiyyətindən asılı olması (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla);

1.3.10.fakültələrin, kafedraların, ixtisasların, fənlərin, müəllimlərin və tələbələrin kodlaşdırılması.

1.4.Ali təhsil müəssisəsi tələbələri kredit sisteminin təşkili qaydaları ilə tanış etməli və təhsil müddətində tələbəyə tədris planında nəzərdə tutulmuş krediti qazanmasına şərait yaratmalıdır.

1.5.Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili müvafiq qurumlar (tədris hissəsi, qeydiyyat, qiymətləndirmə, monitorinq bölmələri) tərəfindən tənzimlənir.

1.6.Bu Qaydalar ali təhsilin əyani(tədrisə tam cəlb olunma-fulltime və tədrisə qismən cəlb olunma-parttime) və qiyabi təhsilalma formalarına şamil edilir.

1.7.Bu Qaydaların icrası ilə bağlı tələb olunan xərclərin maliyyələşdirilməsi dövlət sifarişi ilə təhsil alan tələbələrə görə ali təhsil müəssisələrinə dövlət büdcəsindən ayrılan vəsaitlər, habelə həmin müəssisələr tərəfindən ödənişli təhsildən, sahibkarlıq fəaliyyətindən və qanunvericiliyə uyğun olaraq həyata keçirilən digər fəaliyyətlərdən əldə olunan vəsaitlər hesabına təmin edilir.

**2.Əsas anlayışlar**

2.1.Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1.**təhsil krediti** – fənnin məzmununa və həcminə uyğun olaraq, onun mənimsənilməsinə ayrılan vaxtın ölçü vahididir;

2.1.2.**ixtisasın (ixtisaslaşmanın) tədris planı** – ali təhsilin müvafiq səviyyəsində ixtisas (ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun olaraq, tədris olunan fənlərə və auditoriyadankənar məşğələlərə ayrılan saatların miqdarını müəyyən edən əsas tənzimləyici sənəddir;

2.1.3.**ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki** – ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri üzrə bölgüsünü əks etdirən sənəddir;

2.1.4.**tələbənin fərdi tədris planı** – tələbənin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən sənəddir;

2.1.5.**ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı**–ixtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən sənəddir;

2.1.6.**müəllimin illik işçi tədris planı** – müəllimin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə

tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən sənəddir;

2.1.7.**tələbənin sərbəst işi** – tələbənin tapşırıqları sərbəst və müəllimin rəhbərliyi ilə auditoriyadankənar həyata keçirdiyi müstəqil işidir;

2.1.8.**akademik məsləhətçi (tyutor)** – ali təhsil müəssisələrində tədris məsləhətçisidir;

2.1.9.**akademik mobillik** – tələbənin və professor-müəllim heyətinin ölkədaxili və xarici ölkələrin ali təhsil müəssisələrində müvafiq olaraq sərbəst təhsil almaq və akademik fəaliyyət göstərmək hüququdur;

2.1.10.**Avropa Kredit Transfer Sistemi (AKTS)** – təhsil proqramı ilə müəyyən olunmuş kompetensiyalara nail olmaq üçün tələbənin iş yükünü və təhsilalma istiqamətini müəyyənləşdirən sistemdir. Bu sistem, həmçinin tələbələrin mobilliyini təmin edir və təhsil proqramlarının dövlətlərarası müqayisəsi və tanınması prosedurlarını asanlaşdırır;

2.1.11.**prerekvizit fənlər** – tədrisi ilk növbədə zəruri olan fənlərdir;

2.1.12.**akademik transkript** – tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri və qiymətləri (rəqəm və hərflərlə) özündə əks etdirən sənəddir;

2.1.13.**fənlər üzrə qeydiyyat** – tələbələrin təhsil müəssisəsinin müəyyən etdiyi qaydada fənləri seçmə prosedurudur;

2.1.14.**Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG)** – tələbənin təhsil proqramını mənimsəmə səviyyəsinin göstəricisidir. ÜOMG tələbənin tədris fəaliyyətini fəallaşdırmaq, özünənəzarət mexanizmini yaratmaq, tədrisdə əldə etdiyi nailiyyətlərini qiymətləndirmək məqsədi ilə tətbiq edilir;

2.1.15.**akademik təqvim** – ali təhsil müəssisəsində tədris ili üzrə nəzərdə tutulmuş tədbirləri özündə əks etdirən sənəddir;

2.1.16.**müvəffəqiyyətlə təhsil alan tələbə** - fərdi tədris planında qeyd olunan bütün fənlər üzrə müəyyən olunmuş kreditləri qazanan tələbədir;

2.1.17.**akademik borcu olan tələbə -** fərdi tədris planında qeyd olunan fənlərin ən azı birindən müəyyən olunmuş krediti qazana bilməyən tələbədir;

2.1.18.**tədrisə tam cəlb olunma(fulltime) –** ixtisasın təhsil proqramı ilə müəyyən olunmuş normativ təhsil müddətinə uyğun, tədris qrafiki ali təhsil müəssisəsi tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür;

2.1.19.**tədrisə qismən cəlb oluma(parttime) –** ixtisasın tədris planına uyğun, hər semestrdə iki fənndən az olmamaqla, tədris qrafiki tələbə tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür;

2.1.20.**cari qiymətləndirmə -** fənn üzrə tələbənin semester müddətində fəaliyyətinin qiymətləndirilməsidir;

2.1.21.**aralıq qiymətləndirmə -** fənn üzrə tələbənin imtahan zamanı bilik və bacarıqlarının qiymətləndirilməsidir.

## 3.Tədris prosesi

### 3.1.Tədris-metodiki təminat

3.1.1.Ali təhsil müəssisələrində tələbələrin təhsili ixtisas (ixtisaslaşma) üzrə təhsil proqramı əsasında həyata keçirilir. Ayrı-ayrı ixtisaslar (ixtisaslaşmalar) üzrə tədrisin təşkili və təhsil prosesinin tədris-metodiki təminatı “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın, 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarı ilə təsdiq edilmiş “Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları”nın və 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”nın tələblərinə uyğun olaraq həyata keçirilir.

3.1.2.Kredit sistemində Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş formalar üzrə aşağıdakı tədris sənədlərindən istifadə edilir:

3.1.2.1. ixtisasın (ixtisaslaşmanın) tədris planı;

3.1.2.2. ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki;

3.1.2.3. ixtisas (ixtisaslaşma) üzrə illik işçi tədris planı;

3.1.2.4. tələbənin fərdi tədris planı;

3.1.2.5. müəllimin illik işçi tədris planı.

**3.2.Tədrisin təşkili**

3.2.1.Tədris ili iki semestrdən (payız və yaz) ibarətdir. Bundan əlavə, yay tətili müddətində 6 (altı) həftədən çox olmayaraq yay semestri də təşkil oluna bilər.

3.2.2.Ali təhsilin hər iki səviyyəsində əyani təhsilalma forması üzrə tədris ili 40 həftədir. Hər semestr 20 həftədən (o cümlədən, 5 həftə imtahan sessiyası) ibarətdir. Bir semestrə, tədrisə tam cəlb olunan(fulltime) tələbəyə 30(tələbənin prerekvizit fənn və ya fənnlərdən akademik borcu qaldığı halda, kreditlərin sayı az ola bilər), tədrisə qismən cəlb olunan(parttime) tələbəyə 20-yə qədər kredit müəyyənləşdirilir. Bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Tələbənin həftəlik işinin həcmi 1,5 kreditdir(yay semestri istisna olmaqla). Buraxılış işinin, magistrlik dissertasiyasının hazırlanmasına və müdafiəsinə, eləcə də buraxılış dövlət və semestr imtahanlarına hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir.

3.2.3.Qiyabi təhsilalma forması üzrə tədris ili 32 həftədir. Hər semestr 16 həftədən (o cümlədən, 1 həftə imtahan sessiyası) ibarətdir və hər semestrə 24 kredit müəyyənləşdirilir.

3.2.4.İxtisasın (ixtisaslaşmanın) təhsil müddətindən asılı olaraq, tələbələrə bakalavriatda 240-300 kredit (əsas(baza ali) tibb təhsilində 300-360 kredit), magistraturada təhsilin normativ müddəti 1,5 il olduğu halda 90, 2 (iki) il olduğu halda isə 120 kredit müəyyənləşdirilir. Müəyyən olunmuş kreditin tələbə tərəfindən yığılması məcburidir.

3.2.5.Tədrisə tam cəlb olunan(fulltime) tələbəyə əlavə fənn(fənnlər) də seçməyə icazə verilir. Bu halda təhsil haqqının ödənilməsi bu Qaydaların 4.3-cü bəndinin tələblərinə uyğun həyata keçirilir. Dövlət sifarişi ilə təhsil alan və bütün təhsil

müddətində ayrı-ayrı fənnlərdən göstəricisi 81-100 bal arasında olan tələbələrə əlavə ödəniş etmədən bu Qaydaların 3.2.11-ci yarımbəndinin tələbləri nəzərə alınmaqla, təhsil aldığı ixtisas üzrə əlavə fənn(fənnlər) seçməyə icazə verilir. Bütün hallarda bir semestrdə tələbənin götürdüyü kreditlərin sayı 40-dan çox olmamalıdır.

3.2.6.Tələbəyə bakalavriat səviyyəsində gələcək peşə fəaliyyətində istifadə etməsi və ya oxşar ixtisas üzrə (təhsil proqramında tədrisi nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 70 faizi eyni olduğu halda) əlavə təhsil alması məqsədi ilə bu Qaydaların 3.2.5-ci yarımbəndinin tələbləri gözlənilməklə, ödənişli əsaslarla müvafiq ixtisasların fənnini (fənlərini) seçmək hüququ da verilir. Bu şərtlərlə əlavə təhsil alanlara həmin ixtisas üzrə bakalavr dərəcəsi və müvafiq diplom verilir.

3.2.7.Tədris planında tədris işinin həcmi kredit vahidləri ilə müəyyən edilir. Kreditlər tələbənin aşağıdakı fəaliyyəti üzrə müəyyənləşdirilir:

3.2.7.1.auditoriya (mühazirə, seminar, praktik məşğələlər, laborato-riya) dərslərində iştirak etməsi;

3.2.7.2.auditoriyadankənar (tələbənin müstəqil və müəllimin rəhbər-liyi ilə sərbəst işi) işi;

3.2.7.3.təcrübələrdə iştirak etməsi;

3.2.7.4.laboratoriya işlərini yerinə yetirməsi;

3.2.7.5.kurs işini və layihələrini hazırlaması və müdafiə etməsi;

3.2.7.6.imtahanlara hazırlığı və imtahanları verməsi;

3.2.7.7.buraxılış işini, magistrlik dissertasiyasını hazırlaması və müdafiəsi, eləcə də buraxılış dövlət imtahanına hazırlığı və həmin imtahanı verməsi.

3.2.8.Tədris planında fənlər vacibliyinə və məzmununun mənim-sənilməsi ardıcıllığına görə aşağıdakı 3 qrupa bölünür:

3.2.8.1.məcburi və ardıcıl öyrənilən fənlər üzrə;

3.2.8.2.məcburi, lakin ardıcıllığı vacib olmayan fənlər üzrə;

3.2.8.3.tələbələrin öz seçimi əsasında öyrənilən fənlər üzrə.

3.2.9.Oxşar ixtisas (ixtisaslaşma) üzrə tədris planları hazırlanarkən, müvafiq fənlərin məzmununun unifikasiyasına nail olunmalıdır.

3.2.10.Kredit sistemində ali təhsil müəssisəsi tərəfindən ixtisasın (ixtisaslaşmanın) təhsil proqramı, ixtisasın (ixtisaslaşmanın) tədris planı və ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki hazırlanaraq aidiyyəti qurumlara, tələbənin fərdi tədris planı və müəllimin illik işçi tədris planı müvafiq olaraq tələbələrə və müəllimlərə verilir, eləcə də ali təhsil müəssisəsinin saytında yerləşdirilir.

3.2.11.Hər tədris ili üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki əsasında tələbənin fərdi tədris planı hazırlanır. Fənlərin prerekvizitliyi gözlənilməklə, tələbənin fərdi tədris planı müəyyən olunmuş forma üzrə onun özü tərəfindən tərtib edilir. Bu zaman akademik məsləhətçinin (tyutorun) köməyindən də istifadə oluna bilər. Tələbənin fərdi tədris planı tərtib edilərkən, ali təhsil müəssisəsi ona həm fənn, həm də yüksəkixtisaslı müəllimlərin (vəzifələri, elmi dərəcələri və elmi adları göstərilməklə) seçilməsində öz təkliflərini verir. Növbəti tədris ili üçün tələbənin fərdi tədris planı tərtib olunarkən, buraya ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilir (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Akademik borc yaranan fənn (fənlər) müvafiq semestrdə tədris olunmadığı və ya həmin fənn (fənlər) üzrə qrup yaradılmadığı halda bu tələb istisna edilir.

3.2.12. İxtisasın (ixtisaslaşmanın) illik işçi tədris planı müvafiq olaraq təhsil proqramı, tədris planı, tədris qrafiki və tələbələrin fərdi tədris planları əsasında ali təhsil müəssisəsi tərəfindən hazırlanır.

3.2.13.Müəllimlərin illik işçi tədris planı ixtisasın (ixtisaslaşmanın) illik işçi tədris qrafiki və tələbələrin fərdi tədris planları əsasında hazırlanır.

3.2.14.Cari və aralıq qiymətləndirmənin ümumi nəticələrinə görə fənn üzrə müvəffəq qiymət almış tələbə həmin fənndən kreditləri qazanmış hesab olunur. Cari və aralıq qiymətləndirmənin ümumi nəticələrinə, habelə aralıq qiymətləndirmənin nəticəsinə görə qeyri-müvəffəq qiymət almış,

eləcə də üzürlü və ya üzürsüz səbəbdən imtahanda iştirak etməmiş tələbə bu fənndən kreditləri qazanmır, yəni həmin fənn üzrə akademik borcu qalır. Cari və aralıq qiymətləndirmənin nəticələrinə, habelə aralıq qiymətləndirmənin nəticəsinə görə, eləcə də üzürlü və üzürsüz səbəbdən imtahanda iştirak etmədiyinə görə akademik borcu yaranmış tələbəyə həmin fənn(fənnlər) üzrə təkrar imtahan vermək (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla) və ya fənni(fənnləri) yenidən dinləmək üçün şərait yaradılmalıdır. Bu halda fənni(fənnləri) yenidən dinləmədən kreditləri qazanmaq istəyən tələbə bu imkandan təhsil proqramı ilə müəyyən olunmuş müddət ərzində həmin fənn(fənnlər) tədris olunduğu semestrdə (akademik borcu yaranan semestrdə imtahan sessiyasından sonra növbəti semester başlayanadək və ya növbəti semestrlərdən birində imtahan sessiyası zamanı) istifadə edə bilər. Tələbə hər semestrdə fənni (fənnləri) dinləmədən ümumilikdə iki fənn üzrə (hər fənndən bir dəfə olmaqla) imtahanda iştirak edə bilər. Bu zaman tələbənin fənni(fənnləri) dinlədiyi semestrdəki cari qiymətləndirmənin nəticələri nəzərə alınır və onun qazandığı kreditlər tədris planı üzrə həmin fənni(fənnləri) dinlədiyi semestrə aid olunur. Üzürlü səbədən imtahanda iştirak etməyən tələbə həmin fənn üzrə təkrar imtahan üçün ödəniş etmir, digər hallarda isə tələbənin imtahan üçün ödəniş haqqı bu Qaydaların 4.3-cü bəndinin tələblərinə uyğun həmin fənn üçün müəyyən edilən məbləğin 25 faizindən çox olmamaq şərtilə ali təhsil müəssisəsinin ali idarəetmə orqanı tərəfindən müəyyənləşdirilir və həmin müəssisənin rəsmi internet səhifəsində yerləşdirilir. Bütün digər hallarda akademik borcu olan tələbə fənni yenidən dinləməli və həmin fənndən(fənnlərdən) dərslərdə iştirak etməklə, onun(onların) mənimsənilməsinə qoyulan tələbləri tam yerinə yetirməlidir. Belə olan halda təhsil haqqının ödənilməsi bu Qaydaların 4.3-cü bəndinin tələblərinə uyğun həyata keçirilir.

3.2.15.Tələbə ali təhsil müəssisəsini bitirmək üçün tələb olunan kreditləri ixtisasın normativ təhsil müddətindən sonrakı 3 (üç) ildə (həqiqi hərbi xidmət müddəti nəzərə alınmamaqla) toplaya bilmədiyi halda o, məzmununda əsaslı dəyişikliklər edilən peşə hazırlığı fənnlərindən əvvəllər qazandığı kreditləri itirir. Tələbə həmin kreditləri bu Qaydaların tələblərinə uyğun olaraq yenidən yığmalıdır.

3.2.16.Tələbə bir ali təhsil müəssisəsindən (ixtisasdan) digərinə köçürüldüyü, tələbələr sırasına bərpa olunduğu, akademik məzuniyyətdən qayıtdığı və təkrar ali təhsil aldığı hallarda, onun əvvəllər qazandığı kreditlər bu Qaydaların 3.2.15-ci yarımbəndinin tələblərinə uyğun olaraq nəzərə alınır.

3.2.17.Bir müəllimi bu Qaydaların 4.2.1-ci bəndinə uyğun olaraq seçən tələbələrin sayı fənnin xüsusiyyətlərindən və tədrisin formasından(mühazirə, məşğələ, laboratoriya və s.) asılı olaraq ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir.

3.2.18.**Çıxarılıb.**

3.2.19.Ali təhsil müəssisəsi tərəfindən növbəti tədris ili üçün ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı və fənlər üzrə dərs cədvəlləri tələbələrin fərdi tədris planları əsasında hazırlanaraq, mövcud qaydada tərtib və təsdiq edilir.

3.2.20. **Çıxarılıb.**

3.2.21.Tədris prosesi auditoriya və auditoriyadankənar (tələbənin müstəqil və müəllimin rəhbərliyi ilə sərbəst işi) şəkildə təşkil olunur. Sərbəst işlərin həcmi keçirilən mühazirələrə, seminarlara və praktik məşğələlərə ayrılan akademik saatlara müvafiq olaraq, ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Bu zaman əyani təhsilalma forması üzrə bütün növ dərslərin 1 (bir) akademik saatına 1 (bir) saatdan az olmayaraq sərbəst iş müəyyənləşdirilir. Sərbəst işlərin ümumi həcmindən ən azı 40 faizi dərsdənkənar vaxtda müəllimin rəhbərliyi ilə həyata keçirilməlidir. Müəllimin tələbələrlə sərbəst işi onun tədris-metodiki işi hesab edilir.

3.2.22.Tələbənin sərbəst işinin növü və forması(fərdi, komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim tərəfindən müəyyənləşdirilir.

3.2.23.Fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə(Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Kollegiyası tərəfindən idman növləri üzrə təsdiq edilmiş milli yığma komandaların üzvləri olan idmançı-tələbələr istisna olmaqla) həmin fəndən imtahana buraxılmır. Bu hədd ali təhsil müəssisəsi tərəfindən azaldıla bilər.

3.2.24.Tələbənin cari semestrdə akademik borcu qaldığı halda o, növbəti semestrdə təqaüddən məhrum edilir (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Əgər həmin tələbə cari semestrdə götürdüyü bütün fənlərdən kreditləri qazanarsa, onun təqaüdü növbəti semestrdən bərpa olunur.

**3.3.Tələbənin fərdi tədris planının tərtibi**

3.3.1. Ali təhsil müəssisəsinə yeni qəbul olunan tələbələrə birinci tədris ili üçün fakültə tərəfindən fərdi tədris planı hazırlanır. Tələbə sentyabrın 10-dək həmin fərdi tədris planını almalıdır. Növbəti tədris ilində isə tələbələr bu Qaydaların 3.2.11-ci yarımbəndinin tələblərini gözləməklə, öz fərdi tədris planını hazırlayır və iyulun 5-dən 15-dək fakültəyə təqdim edir. Fərdi tədris planında tələbə sentyabrın 10-dək düzəlişlər edə bilər. Fərdi tədris planı təhsil müəssisəsi tərəfindən tədris ilinin başlanğıcına qədər təsdiq edilir və bu tədris planının bir nüsxəsi tələbədə, bir nüsxəsi isə ali təhsil müəssisəsinin müəyyən etdiyi qurumda saxlanılır.

3.3.2. Tələbənin fərdi tədris planında sonradan dəyişiklik edilməsinə icazə verilmir. Yalnız payız semestrindən akademik borcu qalanlar qış tətilinin ilk həftəsində növbəti semestr üçün fərdi tədris planlarında ali təhsil müəssisəsi tərəfindən müəyyən olunmuş qaydada müvafiq düzəlişlər edə bilərlər.

3.3.3. Ali təhsil müəssisələrində və AMEA-da hər bir fənn üzrə yaradılan qrupda tələbələrin sayı fənnin xüsusiyyətindən və tədrisin formasından asılı olaraq, ali təhsil müəssisəsi və ya AMEA tərəfindən müəyyən edilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”na uyğun olaraq tənzimlənir. Fənn üzrə müəyyən olunmuş sayda tələbə yığılmadıqda, həmin fənn ixtisasın (ixtisaslaşmanın) illik işçi tədris planına daxil edilmir və bu barədə tələbələrə məlumat verilir. Həmin fənnə yazılmış tələbələr öz fərdi tədris planlarında müvafiq qaydada dəyişikliklər aparırlar.

3.3.4.Növbəti tədris ili üçün tələbə təyin olunmuş vaxtda öz fərdi tədris planını təqdim etmədikdə, onun təhsili ali təhsil müəssisəsi üzrə həmin il üçün ixtisasın tədris qrafikinə uyğun təşkil edilir.

### 3.4. Yay semestrinin təşkili

3.4.1. Yay semestri aşağıdakı məqsədlərlə təşkil olunur:

3.4.1.1. akademik borcların ləğv edilməsi;

3.4.1.2. fənlərin prerekvizitliyi gözlənilməklə, humanitar fənlər bölümünə daxil olan və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlərin kreditlərinin qazanılması;

3.4.1.3. müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsi;

3.4.1.4.ali təhsil müəssisəsinin təklif etdiyi ayrı-ayrı fənlər üzrə digər ali təhsil müəssisəsi tələbələrinə müvafiq kreditlər qazanmasına şəraitin yaradılması.

3.4.2. Yay semestri yaz semestri başa çatdıqdan sonra təşkil olunur və onun başlanma müddəti ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. Yay semestrinin (nəzəri təlim və imtahanlar) müddəti 6 (altı) həftədir (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). İmtahan müddəti 1 (bir) həftədən artıq olmamaqla, yay semestrinin sonuncu həftəsində təşkil edilir.

3.4.3.Yay semestrində tələbənin götürdüyü fənlərin krediti 10-dan artıq olmamalıdır.

3.4.4.Yay semestri və imtahanlar növbəti semestrin başlanmasına 2 həftə qalanadək başa çatdırılır.

3.4.5.Yay semestrində üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələr üçün növbəti semestrin başlanğıcına qədər bir dəfə imtahan təşkil olunur.

3.4.6.Tələbə yay semestrində iştirakından asılı olmayaraq, payız semestri üçün öz fərdi tədris planını iyulun 5-dən 15-dək fakültəyə təqdim etməlidir və o, bu Qaydaların 3.3.1-ci yarımbəndində göstərilən müddətdə öz fərdi tədris planında müvafiq dəyişikliklər edə bilər.

3.4.7.Müvəffəqiyyət qazandığı fəndən qiymətini yüksəltmək məqsədi ilə tələbəyə yenidən imtahan verməyə icazə verilmir. Lakin o, qiymətini yüksəltmək üçün yay semestrində həmin fənni yenidən götürərək dinləməklə imtahan verir. Tələbə öz məqsədinə nail olmadıqda, onun əvvəl topladığı bal qüvvədə qalır.

3.4.8.Bu Qaydaların 3.2.23-cü yarımbəndinin tələblərinə uyğun olaraq, imtahana buraxılmayan tələbə semestrdə fənn (fənlər) üzrə müəyyən edilmiş dərslərin 50 faizindən çoxunda iştirak etdiyi halda o, həmin fənni (fənləri) yay semestrində təkrar götürmək hüququna malikdir.

3.4.9.Ali təhsil müəssisələrində yay semestri könüllülük prinsipi ilə ödənişli əsaslarla həyata keçirilir (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla).

3.4.10.Yay semestrində tələbənin fənn üzrə bir kreditinin ödənişi bu Qaydaların 4.3-cü bəndinin tələblərinə uyğun olaraq müəyyən edilir.

3.4.11.Yay semestrində fənn üzrə qrupda tələbələrin sayını ali təhsil müəssisəsi maliyyə imkanlarını nəzərə alaraq müəyyənləşdirir.

3.4.12.Yay semestrinə müəllimlər könüllü surətdə cəlb olunurlar. Bu zaman müəllimin fəaliyyətinin ödəniş məbləği saathesabı qaydada həyata keçirilir. Bundan əlavə müəllimlərə fənn üzrə qrupdan əldə olunan vəsaitin hesabına əlavə ödəniş verilir. Həmin ödənişin məbləği ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir.

3.4.13.Yay semestrində əldə olunan vəsaitdən bu Qaydaların 3.4.12-ci yarımbəndində göstərilənlər istisna olmaqla, ali təhsil müəssisəsinin rektorunun əmri ilə bu işə cəlb olunan digər əməkdaşların əməkhaqları ödənilir.

3.4.14.Ali təhsil müəssisələri yay semestri təşkilatçılarının və müəllimlərinin ödəniş məbləğini öz maliyyə imkanlarına görə sərbəst müəyyən edirlər.

**4.Tələbələrin hüquq və vəzifələri**

4.1.Tələbə öz fərdi tədris planını tərtib edərkən, bu Qaydalarla tanış olmalı və buradakı tələblərə ciddi riayət etməlidir.

4.2.Təhsil zamanı tələbə fərdi tədris planına ciddi riayət etməklə, tədris olunan fənləri mənimsəməyə borcludur.

4.2.1.Tələbənin bu Qaydaların 3.2.17-ci yarımbəndinə müvafiq olaraq müəllim seçmək hüququ vardır.

4.3.Tələbə ixtisas (ixtisaslaşma) üzrə təhsil proqramı ilə müəyyən olunmuş müddətdə tələb olunan kreditləri yığa bilmədiyi halda o, tələbələr sırasından xaric edilmir (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həmin tələbə kontingentdə saxlanılmaqla, təhsilini yalnız ödənişli əsaslarla davam etdirə bilər. Belə halda tələbənin ödənişinin məbləği ixtisas (ixtisaslaşma) üzrə illik təhsil haqlarını 60-a bölərək alınan nəticəni onun götürdüyü fənlərin kreditlərinə vurmaqla müəyyənləşdirilir.

4.4.Tələbə bu Qaydaların 6.1-ci bəndinin tələblərinə uyğun olaraq, digər ali təhsil müəssisələrində də müvafiq fənlər üzrə kreditləri qazana bilər.

4.5.Tələbə öz akademik transkriptini ali təhsil müəssisəsindən təhsil aldığı dövrdə istənilən vaxt əldə edə bilər.

## 5.Akademik məsləhətçi (tyutor) xidməti

5.1.Ali təhsil müəssisələrində Bolonya prosesinin təşviqi, kredit sistemi ilə tədrisin təşkili, AKTS sisteminin tətbiq edilməsi və tələbələrə kömək göstərilməsi məqsədi ilə ali təhsil və AMEA-da akademik məsləhətçilər (tyutorlar) xidməti təşkil olunur.

5.2.Tyutorlar bu sahədə müəyyən təcrübəsi və səriştəsi olan şəxslər arasından seçilirlər.

5.3.Tyutor bu vəzifəyə rektorun əmri ilə təyin olunur.

5.4.Tyutorlar:

5.4.1.tələbələrin hüquqlarını və akademik maraqlarını qoruyurlar;

5.4.2.tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatları və sənədləri tələbələrə təqdim edirlər;

5.4.3.tələbələrin fərdi tədris planlarının tərtibi üçün onlara məsləhətlər verirlər;

5.4.4.bu Qaydaların 3.3.1-ci yarımbəndində göstərilən müddətdə tələbələrin fərdi tədris planlarının qəbulunu təşkil edir və ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planlarının tərtibində iştirak edirlər;

5.4.5.tələbələrə fərdi tədris planlarında dəyişikliklər aparmasına yardım göstərirlər;

5.4.6.yay semestrinin təşkilində iştirak edirlər.

**6.Tələbə və müəllim mobilliyi**

6.1.Kredit sistemi ilə tədrisin təşkilində Bolonya bəyannaməsinin müddəalarına müvafiq olaraq, tələbələrin akademik mobilliyi onların digər ali təhsil müəssisələrində, o cümlədən xarici ölkə ali təhsil müəssisələrində ayrı-ayrı fənlər üzrə kreditləri qazanmaları ilə təmin edilir. Tələbənin digər ali təhsil müəssisələrində kreditləri qazanması təhsil aldığı ali təhsil müəssisəsinin razılığı ilə həyata keçirilir. Bu zaman təhsil haqqının ödəniş şərtləri tələbə ilə göndərən və qəbul edən ali təhsil müəssisələri arasında razılaşdırılır. Qazanılmış kreditlər tələbənin təhsil aldığı ali təhsil müəssisəsi tərəfindən tanınmalıdır. Digər ali təhsil müəssisələrində qazanılacaq kreditlərin sayı ixtisas (ixtisaslaşma) üzrə nəzərdə tutulmuş kreditlərin 30 faizindən çox olmamalıdır.

6.2.Tələbənin akademik mobilliyinin ali təhsil müəssisələri arasında təmin edilməsi üçün forması və nümunələri Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilən aşağıdakı sənədlər olmalıdır:

6.2.1.akademik transkript;

6.2.2.tələbənin ərizə (təhsil alacağı dildə doldurulur) forması;

6.2.3.tədris razılığı;

6.2.4.məlumat paketi.

6.3.Professor-müəllim heyətinin mobilliyi (mühazirənin oxunması, seminarların, praktik məşğələlərin, laboratoriya işlərinin keçirilməsi) ali təhsil müəssisələri arasında xüsusi razılıq əsasında həyata keçirilir.

## Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında

Biliyin qiymətləndirilməsinin çoxballı sistemi tələbələrin tədris fəaliyyəti nəticəsində fənnin öyrənilməsində əldə etdikləri bilik və

bacarıqların qiymətələndirilməsinin yeni mexanizmidir və bu mexanizm daxili qaydalara əsasən tənzimlənir.

Elektron Təhsil Sistemində iştirak etməyən tələbələrə həmin saata «q/b», sorğulara cavab verənlərə müvafiq «bal», dərsdə iştirak edən, lakin qiymət almayanlara isə «i/e» yazılmalıdır.

Konkret fənn üzrə semestr ərzində toplanmış balın yekun miqdarına görə tələbələrin biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| - 51 baldan aşağı | - «qeyri-kafi» | - F |
| - 51-60 bal | - «qənaətbəxş» | - E |
| - 61-70 bal | - «kafi» | - D |
| - 71-80 bal | - «yaxşı» | - C |
| - 81-90 bal | - «çox yaxşı» | - B |
| - 91-100bal | - «əla» | - A |

İmtahan vərəqələrində, tələbələrin qiymət kitabçalarında, diplomlara əlavələrdə və digər sənədlərdə tələbələrin fənlər üzrə qazandıqları ballar və onların hərf işarələri qeyd olunmalıdır.

Fənni tədris edən müəllim tələbələrə ilk gündən çoxballı sistemin əhəmiyyətini, onların tədris fəaliyyətinin müxtəlif növlərinin hansı ballarla qiymətləndirilməsini izah etməlidir.

**İmtahan sessiyasının təşkili və keçirilməsi qaydaları**

İmtahanların gedişi və təşkili «Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi Əsasnamə» və «Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında Əsasnamə» ilə tənzimlənir.

**Tələbəyə fənnlər üzrə sərbəst işə görə balların müəyyənləşdirilməsi**

Ayrı-ayrı fənnlər üzrə tələbəyə sərbəst işə görə verilən balın maksimum həddi 10-dur (20). Sərbəst işlərin tapşırıqları müxtəlif formada (mühazirə mövzuları üzrə problem və praktiki xarakterli tapşırıqlar, prezentasiyalar və s.) ola bilər. Həmin tapşırıqlar fənni tədris edən müəllim tərəfindən müəyyənləşdirilir. Tapşırıqların yoxlanılması və qəbulu müəllim tərəfindən dərsdən kənar vaxtda həyata keçirilir.

**Kurs işinin (layihəsinin) yerinə yetirilməsinə görə balların hesablanması**

Kurs işinin (layihəsinin) yazılması və müdafiəsi tələbənin müstəqil işinin əsas formalarından biri olub, kursun proqramı

üzrə tədris materialının mənimsənilməsinə nəzarət vasitəsidir. Kurs işlərinin mövzuları kafedra tərəfindən hazırlanır və semestrin əvvəlində ən geci 15 gün müddətində tələbələrə paylanılır. Kurs işi tələbənin fərdi əməyinin nəticəsidir və əsas etibarilə standart məsələlərin həllinə həsr olunur. Bəzi hallarda kurs işləri elmi-tədqiqat xarakteri daşıya bilər. Kurs işi mövcud standartlara cavab verməli və strukturu aşağıdakı kimi olmalıdır:

- Giriş;
- Mövzunun əsas məsələlərinin həlli (şərhi);
- Nəticə (təkliflər);
- İstifadə olunan ədəbiyyatın siyahısı;

Kurs işinin müdafiəsi üçün tələbə maksimum 10 (20) bal qazana bilər. Bu balların hesablanması aşağıdakı meyarlar əsasında müəyyənləşdirilir;

- 10 bal – tələbə seçdiyi mövzunu tam əhatə edir, iş düzgün tərtib edilib, müdafiə zamanı onun cavabı dəqiq və hərtərəflidir;
- 9 bal – tələbə seçdiyi mözunu tam əhatə edir, iş düzgün tərtib edilib, müdafiə zamanı onun cavabı dəqiqdir və mövzunun məzmununu aça bilir;
- 8 bal – tələbə seçdiyi mövzunu tam əhatə edir, iş düzgün tərtib edilib, müdafiə zamanı o cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
-7 bal – tələbə seçdiyi mövzunu tam əhatə edir, işin tərtibində qüsurlara yol verilib, lakin müdafiə zamanı onun cavabı dəqiq və hərtərəflidir;
-6 bal – tələbə seçdiyi mövzunu tam əhatə edir, işin tərtibində qüsurlara yol verilib, müdafiə zamanı bəzi məsələləri nəzəri cəhətdən əsaslandıra bilmir;
- 4 bal – tələbə seçdiyi mövzunu əhatə edir, işin tərtibində qüsurlara yol verilib, müdafiə zamanı cavabları dəqiq deyil;
- 0 bal – tələbə seçdiyi mövzunu işləyərkən səhvlərə yol verir, müdafiə zamanı mövzunu açmaqda çətinlik çəkir;
- 0 bal – tələbə tərəfindən kurs işi yazılmayıb.

Kurs işlərinin(layihələrinin) müdafiəsi ali məktəbin müəyyən etdiyi qaydada həyata keçirilir.

### Təcrübələrin nəticələrinə görə balların hesablanması

Tədris planında nəzərdə tutulmuş təcrübənin nəticələrinə görə tələbənin toplaya biləcəyi balların maksimum miqdarı 100-ə

bərabərdir. Bu balların yarısı təcrübəyə davamiyyətinə görə, digər yarısı isə təcrübə üzrə hesabatın hazırlanması və müvafiq qaydada komissiya qarşısında müdafiəsinə görə verilir.

Təcrübəyə davamiyyətinə görə tələbənin topladığı yekun bal tələbənin təcrübədə iştirak etdiyi saatların miqdarının davamiyyətə ayrılan maksimum (50 bal) vurularaq təcrübəyə ayrılmış saatların miqdarına bölünməklə hesablanır.

Təcrübə üzrə hesabatın tərtib olunub müdafiəsinə görə tələbənin yekun balının hesablanması meyarları və metodikası ali məktəbin Elmi Şurası tərəfindən təsdiq olunur.

**Buraxılış işinə görə balların hesablanması**

Buraxılış işinin yazılması və müdafiəsinə görə tələbənin toplaya biləcəyi balların maksimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı buraxılış işinin hazırlanması və tərtibinə, digər yarısı isə Dövlət Attestasiya Komissiyası qarşısında müdafiəsinə görə verilir.

Buraxılış işinin yazılması və müdafiəsinə görə balların hesablanması meyarları ali məktəbin Elmi Şurası tərəfindən təsdiq edilir.

Buraxılış işinin müdafiəsi mövcud qaydalara uyğun aparılır.

**Tələbənin nailiyyətlərinin cari və yekun qiymətləndirilməsi**

Tələbənin tədris fəaliyyətini fəallaşdırmaq, onlar üçün özünənəzarət mexanizmini yaratmaq və tədrisdə əldə olunmuş nailiyyətlərini qiymətləndirmək məqsədilə ümumi orta müvəffəqiyyət göstəricisi ( ÜOMG) tətbiq edilir.

Ümumi orta müvəffəqiyyət göstəricisi fənlər üzrə toplanan balların həmin fənnə görə qazanılan kreditlərə hasilləri cəmlərinin tədris planında nəzərdə tutulan müvafiq kreditlərin cəminə olan nisbəti kimi müəyyənləşdirilir:

$$\mathrm{UOMG} = \frac{b_1 k_1^{\ *} + b_2 k_2^{\ *} + b_3 k_3^{\ *} + \ldots + b_n k_n^{\ *}}{k_1 + k_2 + k_3 + \ldots + k_n}$$

$b_{1,} b_{2,\ldots,} b_n$ - tələbənin fənlər üzrə yığdığı ballar

$k_{1,} k_{2,\ldots} k_n$ - fənlərə tədris planında nəzərdə tutulan müvafiq kreditlər

$k_1*, k_{2,...,} k_3*$ - fənlər üzrə qazanılmış kreditlər ( əgər tələbə imtahandan müvəffəq qiymət almazsa o, kredit qazanmamış hesab edilir və bu əmsal «0» (sıfır) olur )

ÜOMG semestrlər üzrə artan istiqamətdə hesablanır ( bir semestrin,iki semestrin,üç semestrin və s.).

ÜOMG tələbənin istiqamət ( ixtisas) üzrə təhsil proqramının mənimsəmə səviyyəsinin əsas göstəricisidir. Hər semestrin axırında tələbə öz cari müvəffəqiyyətini qiymətləndirir və onu daha yüksək səviyyəyə qaldırmaq üçün gələcək tədris fəaliyyətini müəyyənləşdirir.

Yüksək ÜOMG-si ( «çox yaxşı» və «əla» ) olan tələbələr rektorun rəğbətləndirilmə siyahısına daxil edilir.Üç dəfə həmin siyahıya düşən tələbələr lider-tələbə hesab olunurlar və onlar ali təhsil müəssisəsi tərəfindən müəyyən olunmuş qaydada rəğbətləndirililər.

ÜOMG diploma əlavəyə daxil edilir və bu göstərici işə götürənlər üçün əsas meyarlardan biri ola bilər.

## Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında ƏSASNAMƏ

1.Fənn üzrə imtahan tələbənin semestr ərzində aldığı nəzəri biliklərin mənimsəmə səviyyəsini, təfəkkürünün inkişafını, sərbəst işləmə bacarığını, təcrübi məsələlərin həllində həmin biliklərdən istifadə etmək qabiliyyətini müəyyənləşdirmək və qiymətləndirmək üçün nəzərdə tutulur.

2. İmtahan sessiyaları bir qayda olaraq tədris ili ərzində iki dəfə(qış,yaz) tədris planları ilə müəyyən olunmuş vaxtda keçirilir.Yay semestri təşkil olunduğu halda əlavə olaraq yay imtahan sessiyası (yay) da keçirilir.

3. Fənlər üzrə imtahanlar bu əsasnaməyə və «Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə» yə uyğun ali təhsil müəssisələri tərəfindən həyata keçirilir.

4.İmtahan sessiyaları tərtib olunmuş cədvəl üzrə həyata keçirilir. Cədvəl fakültə tərəfindən tədris planlarına əsasən tərtib edilir və sessiyaya ən azı 15 gün qalmış rektor və ya prorektor

tərəfindən təsdiq olunur.Hər bir imtahana hazırlaşmaq üçün tələbələrə 2 gündən az olmayaraq vaxt ayrılır.

5.Tələbə imtahana qiymət kitabçası ilə buraxılır.

6.İmtahanların aparılmasında nizam-intizama və eləcə də onun gedişinə nəzarət etmək məqsədilə fənni tədris edən müəllim ilə birliktə həmin fənn üzrə mütəxəssis olmayan iki nəfər nəzarətçi təyin edilir.

7.Kənar şəxslərin (rektorluğun nümayəndəsindən başqa) imtahan keçirilən auditoriyaya daxil olmasına icazə verilmir.

8.İmtahanlarda tələbənin biliyinin qiymətləndirilməsi imtahan biletləri ( və ya testlər) əsasında həyata keçirilir. İmtahan biletləri «Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə» yə uyğun tərtib edilir.

9.İmtahanın gedişində tələbəyə icazə verilmir :

-digər tələbələrlə danışmaq,onlara mane olmaq, imtahanda səs salmaq;

-kitabdan,mühazirə konspektlərindən və sair icazə verilməyən materiallardan istifadə etmək və köçürmək;

-imtahan biletini və cavab blanklarını təhvil vermədən imtahandan çıxmaq.

10.Bu əsasnamənin 9-cu bəndində göstərilən qaydalara əməl etməyən tələbə imtahandan xaric edilir və nəticəsinə görə ona « 0 – sıfır » bal müəyyənləşdirilir.

11.İmtahan üçün ayrılmış vaxt başa çatdıqdan sonra tələbələrdən cavab blankları yığılır,ali məktəbin rəhbərliyi tərəfindən müəyyən edilmiş şəxs tərəfindən kodlaşdırılır və fənni tədris edən müəllim tərəfindən yoxlanılaraq qiymətləndirilir. Zərurət olduğu halda yoxlamaya kafedranın digər müəllimləri də cəlb oluna bilər.

12.İmtahanların nəticələri imtahan vərəqəsində və tələbənin qiymət kitabçasında qeyd olunur. Fənlər üzrə imtahan vərəqələri sessiyanın başlanğıcına ən azı iki həftə qalmış dekanlıq tərəfindən hazırlanır və imtahan günü müəllimə təqdim olunur.İmtahan vərəqəsi imtahan başa çatdıqdan sonra müəllim tərəfindən müvafiq qaydada doldurularaq fakültə dekanlığına təhvil verilir. İmtahan vərəqəsinə tələbələrin imtahandan aldığı qiymət (ballar və onların hərfi işarələri göstərilməklə ), iştirak etməyən tələbəyə isə « gəlmədi» yazılır.

13.Tələbənin fənn üzrə semestr ərzində və imtahanda toplanan ballar cəmlənir və dekanlıq tərəfindən yekun bal müəyyənləşdirilir. Nəticələr imtahan verilən gün ( müstəsna hallarda növbəti iş günü) tələbələrə elan edilir. Tələbənin fənn üzrə aldıgı müsbət qiymət (ballar və onların hərfi işarələri ) eyni zamanda onun qiymət kitabçasına da yazılır.

14.Sessiyanın sonunadək imtahana gəlməyən tələbə dekanlığa onun səbəbi haqqında rəsmi məlumat verməlidir. Üzürlü səbəbdən imtahana gəlməyən tələbəyə həmin fəndən imtahan vermək üçün mövcud qaydada növbəti semestrin başlanğıcına qədər bir dəfə şərait yaradılır. Üzürsüz səbəbdən imtahanda iştirak etməyən tələbəyə həmin fəndən imtahanın nəticəsi « qeyri-kafi» kimi sayılır.

15.İmtahanlardan qeyri-müvəffəq qiymət alan tələbələr yalnız həmin fənni təkrar dinlədikdən sonra növbəti dəfə imtahan verə bilərlər.

16. İmtahanlar zamanı baş verə biləcək münaqişələri aradan qaldırmaq üçün ali təhsil müəssisəsi tərəfindən imtahan sessiyası başlananadək apelyasiya komissiyası yaradılır. Apelyasiya komissiyasına ilkin yoxlamanın nəticələrinə düzəliş etmək səlahiyyəti verilir.

17.Tələbə ona verilən qiymətdən razı olmadığı halda həmin gün apelyasiya komissiyasının sədrinə əsaslandırılmış ərizə ilə müraciət edə bilər. Sədr tələbənin cavab blankının yenidən yoxlanılmasını təşkil edir.

18.Üzürsüz səbəbdən semestr müddətində tədris olunan bütün fənlərə ayrılmış ümumi saatların 25%-dən çoxunu buraxan tələbə ali məktəbin daxili intizam qaydalarını pozmuş hesab edilir və buna görə də tələbələr sırasından xaric olunur.

Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır.

19. Ali təhsil müəssisələrinin axşam və qiyabi şöbələrində təhsil alan tələbələrə imtahan sessiyası başlanana qədər müəyyən olunmuş forma üzrə arayış-çağırış göndərilir. Arayış-çağırışların tələbələrə çatdırılmasına, eləcə də onların imtahanlara gəlmələrinə fakültə dekanlığı nəzarət edir.

20. Fərdi tədris planında qeyd olunan bütün fənlər üzrə müvəffəq qiymət almış qiyabi şöbələrində təhsil alan tələbələrə əmək qanunvericiliyinə uygun olaraq ödənişli məzuniyyət verilir.

**Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi**

## Q A Y D A S I

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 30 avqust tarixli 3108 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 noyabr tarixli 1516 nömrəli Sərəncamına əsasən hazırlanmışdır və əyani təhsilalma forması üzrə (tədrisə qismən cəlb olunma (parttime) növü istisna olmaqla) təhsil alan doktorantlara, ali təhsil, orta ixtisas, peşə təhsili müəssisələrinin tələbələrinə dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlərin təyin edilməsi və ödənilməsi qaydalarını müəyyənləşdirir.

1.2. Bu Qayda Azərbaycan Respublikasının elmi müəssisə və təşkilatlarında, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində əyani təhsilalma forması üzrə (tədrisə qismən cəlb olunma (parttime) növü istisna olmaqla) təhsil alan Azərbaycan Respublikasının vətəndaşlarına və Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərə şamil edilir. Dövlət tərəfindən müəyyən edilmiş təhsil qrantı proqramları çərçivəsində təhsil alan əcnəbi və vətəndaşlığı olmayan şəxslərə təqaüdlərin təyin olunması və ödənilməsi həmin təhsil qrantlarının verilməsi qaydaları ilə tənzimlənir. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində başqa qayda nəzərdə tutulmadıqda, həmin müqavilələrə əsasən təhsil alan əcnəbi və vətəndaşlığı olmayan şəxslər üçün təqaüdlər onların faktiki sayına bərabər miqdarda təyin olunur və bu Qaydaya (1.9-cu, 2.4-2.5-ci, 2.7-2.15-ci bəndlər istisna olmaqla) uyğun olaraq ödənilir.

1.3. Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin tələbələrinə təqaüd dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilir.

1.4. Tələbələrə təqaüdün verilməsi müəssisə tərəfindən yaradılan təqaüd komissiyasının təqdimatı əsasında müəssisə rəhbərinin əmri ilə həyata keçirilir.

1.5. Təqaüd ayda bir dəfə ödənilir. Bu Qayda tələbələrə təqaüdü ixtisas üzrə təhsil proqramı ilə müəyyən edilmiş müddətdə almaq imkanı verir.

1.6. Doktorant və tələbələrə təqaüdün verilməsi onlar təhsil aldıqları müəssisədən xaric olduğu gündən dayandırılır.

1.7. İstehsalat təcrübəsi və ya ixtisas üzrə təcrübə və tətil müddətlərində tələbələrin işləyib-işləməmələrindən asılı olmayaraq, təqaüd alma hüquqları saxlanılır.

1.8. Tələbələrə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsis edilən təqaüdlərin, adlı və digər bu kimi təqaüdlərin təyin edilməsi bu Qayda ilə müəyyənləşdirilən təqaüdlərin verilməsini dayandırmır.

1.9. Ali və orta ixtisas təhsili müəssisələrində akademik məzuniyyət götürən doktorant və tələbələrə cari tədris semestri müddətində təqaüd tam həcmdə ödənilir və həmin şəxs akademik məzuniyyətdən qayıtdıqda ona təqaüd yalnız növbəti imtahan sessiyasının nəticələrinə əsasən ümumi əsaslarla verilir. Peşə təhsili müəssisələrində akademik məzuniyyət götürən tələbələrə təqaüdün verilməsi onlar akademik məzuniyyətə getdiyi gündən dayandırılır və akademik məzuniyyətdən qayıtdıqda tələbələrə təqaüdün verilməsi davam etdirilir.

1.10. Tələbələr üçün adlı təqaüdlər Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilir.

1.11. Tələbələr üçün büdcə vəsaitləri hesabına məqsədli təqaüdlər tabeliyində dövlət təhsil müəssisələri olan mərkəzi icra hakimiyyəti orqanları tərəfindən təyin edilir. Büdcədənkənar vəsaitlər hesabına məqsədli təqaüdlər isə təhsil müəssisələrinin Elmi və ya Pedaqoji Şurası tərəfindən müəyyən olunur və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilir.

## 2. Ali təhsil və orta ixtisas təhsili pillələri üzrə təqaüdlərin təyin olunması və ödənilməsi

2.1. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, ali və orta ixtisas təhsili müəssisələrinin əyani təhsilalma forması üzrə (tədrisə qismən cəlb olunma (parttime) növü istisna olmaqla) təhsil alan tələbələrinə təqaüd onların ümumi orta müvəffəqiyyət göstəricilərinə (bundan sonra - ÜOMG) görə verilir.

2.2. ÜOMG tələbənin təhsil proqramını mənimsəmə səviyyəsinin göstəricisidir. ÜOMG tələbənin tədris fəaliyyətini fəallaşdırmaq, özünənəzarət mexanizmini yaratmaq, tədrisdə əldə etdiyi nailiyyətlərini qiymətləndirmək məqsədi ilə tətbiq edilir.

2.3 ÜOMG tələbənin fənlər üzrə topladığı balların həmin fənnə görə qazanılan kreditlərə hasilləri cəmlərinin tədris planında həmin semestrdə tədris olunan fənlərə görə nəzərdə tutulan müvafiq kreditlərin cəminə olan nisbəti kimi müəyyənləşdirilir:

$$\text{ÜOMG} = \frac{b_1k_1^*+b_2k_2^*+b_3k_3^*+\ldots+b_nk_n^*}{k_1+k_2+k_3+\ldots+k_n}$$

b1,b2,...,bn - tələbənin fənlər üzrə topladığı ballar;

k1,k2,...,kn - tədris planında həmin semestrdə tədris olunan fənlərə görə nəzərdə tutulan müvafiq kreditlər;

k1*, k2*,..., k3* - fənlər üzrə qazanılmış kreditlər. Əgər tələbə imtahandan müvəffəq qiymət almazsa, o, krediti qazanmamış hesab edilir və bu əmsal sıfır olur.

2.4. Orta ixtisas təhsili müəssisələrində hər tədris ili üçün ixtisaslar üzrə təqaüdlərin sayı həmin ixtisaslar üzrə dövlət sifarişi və dövlət hesabına təhsilalanların sayına bərabər qəbul edilir və dövlət büdcəsindən təqaüd üçün ayrılan vəsait həcmində müəyyənləşdirilir. Orta ixtisas təhsili müəssisələrinə qiyabi təhsilalma forması üzrə dövlət sifarişi və dövlət hesabına qəbul olmuş tələbəyə görə nəzərdə tutulan təqaüd yeri (yerləri) ikinci tədris semestrindən həmin ixtisas üzrə təqaüdlər sayına əlavə olunur.

2.4-1. Ali təhsil müəssisələrində təqaüd yerlərinin sayı “Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası

Prezidentinin 2019-cu il 14 fevral tarixli 960 nömrəli Sərəncamının 1-ci hissəsində göstərilən səviyyədə müəyyənləşdirilir.

Hər tədris ili üçün təqaüd yerlərinin ümumi sayı dövlət sifarişi və dövlət hesabına əyani və qiyabi təhsilalma formasında təhsilalanların sayının və əlavə təqaüd yerlərinin sayının cəmindən ibarətdir. Əlavə təqaüd yerlərinin ali təhsil müəssisələri arasında bölgüsü hər bir ali təhsil müəssisəsinə qəbul olunmuş təhsilalanların sayının bütün ali təhsil müəssisələrinə qəbul olunmuş təhsilalanların ümumi sayında xüsusi çəkisinə uyğun olaraq Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir. Ali təhsil müəssisəsində əlavə təqaüd yerlərinin ixtisaslar üzrə bölgüsü hər bir ixtisas üzrə ödənişli əsaslarla qəbul olunmuş təhsilalanların sayının həmin ali təhsil müəssisəsinə ödənişli əsaslarla qəbul olunmuş təhsilalanların ümumi sayında xüsusi çəkisinə uyğun aparılır.

2.5. Ali təhsil və orta ixtisas təhsili müəssisələrinə hər bir ixtisas üzrə təqaüdlərin sayı nəzərə alınmaqla, imtahan sessiyasının nəticələrinə əsasən ÜOMG-yə görə ən yüksəkdən başlayan sıralamaya uyğun növbəti semestrdə təqaüd alacaq tələbələrin siyahısı müəyyən edilir. Cari və aralıq qiymətləndirmənin ümumi nəticələrinə, habelə aralıq qiymətləndirmənin nəticəsinə görə, eləcə də üzrsüz səbəbdən imtahanda iştirak etmədiyinə görə akademik borcu yaranmış və akademik borcu yaranan semestrdə imtahan sessiyasından sonra növbəti semestr başlayanadək həmin fənni (fənləri) dinləmədən imtahan verərək və ya yay semestrində dinləyərək müvəffəq qiymət almış tələbə növbəti semestrdə təqaüd almaq hüququ olan tələbələrin siyahısına daxil edilmir. Eyni tədris ili üzrə eyni ixtisasda təqaüd alacaq tələbələrin siyahısı müəyyənləşdirilərkən tədris dili nəzərə alınmır.

2.6. Təqaüd almaq hüququnu qazanmış tələbələrə təqaüdlər semestr üzrə (birinci tədris ilinin birinci semestri istisna olmaqla) imtahan sessiyasının nəticələrinə əsasən fənlər üzrə göstəricilərinə görə aşağıdakı kimi müəyyənləşdirilir:

2.6.1. fənlər üzrə göstəriciləri 91-100 bal olan tələbələrə "əlaçı" təqaüdü;

2.6.2. fənlər üzrə göstəriciləri 71-100 bal olan tələbələrə “həvəsləndirici” təqaüdü. Bu halda ən azı bir fəndən akademik göstəricisi 91-100 olmalıdır;

2.6.3. fənlər üzrə göstəriciləri 51-100 bal olan tələbələrə “adi” təqaüd.

2.7. Hər bir tədris ili üçün ixtisas üzrə təqaüd almaq hüququ olan tələbələrin siyahısında sıralamada sonuncu yerə bir neçə iddiaçı olduğu halda, birinci tədris ilinin ikinci semestrində ali təhsil müəssisəsinə qəbul imtahanından topladığı bal, sonrakı semestrlərdə isə əvvəlki semestrdəki ÜOMG-si yüksək olan tələbəyə üstünlük verilir.

2.8. Təqaüd almaq hüququ olan tələbələrin siyahısı müəyyənləşdirilərkən təqaüdlərin müəyyən olunmuş sayı müvəffəq qiymət alanların sayından çox olduğu halda, qalan təqaüd yerləri ali təhsil müəssisələrində fakültənin elmi şurasının, orta ixtisas təhsili müəssisələrində isə pedaqoji şuranın qərarı ilə həmin kursun digər ixtisasları üzrə təhsil alan və həmin semestrdə ÜOMG-si yüksək olan tələbələrə növbəti semestrədək verilir.

2.9. Bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsinə dövlət sifarişi ilə qəbul olunan, 600 və daha çox bal toplayan tələbələrə birinci tədris ilinin birinci semestrində “əlaçı”, digər halda isə “adi” təqaüd verilir. V ixtisas qrupu üzrə dövlət sifarişi ilə qəbul olunan, imtahan verilən fənlər üzrə müəyyən olunmuş maksimal balın 85 faizini və daha çox bal toplayan tələbələrə birinci tədris ilinin birinci semestrində “əlaçı”, digərlərinə isə “adi” təqaüd verilir. Bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsinə dövlət sifarişi ilə “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 26.5-ci və 26.5-3-cü maddələrinə əsasən müsabiqədənkənar qəbul olunan tələbələrə birinci tədris ilinin birinci semestrində “adi” təqaüd verilir.

2.10. Magistratura səviyyəsinə dövlət sifarişi ilə qəbul olunan, imtahan verilən fənlər üzrə müəyyən olunmuş maksimal balın 91 faizini və daha çox bal toplayan tələbələrə birinci tədris ilinin birinci semestrində “əlaçı”, digər halda isə “adi” təqaüd verilir.

2.11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 26 dekabr tarixli 354 nömrəli qərarı ilə təsdiq edilmiş “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili

Qaydaları”nın qüvvəyə mindiyi tarix nəzərə alınaraq, orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasından qəbul olunan və kredit sistemi ilə təhsil alan tələbələrə təqaüd bu Qaydanın 2.6-cı bəndinə əsasən müəyyən edilir. Tam orta təhsil bazasından qəbul olunan və kredit sistemi ilə təhsil almayan əla qiymətlərlə təhsil alan tələbələrə “əlaçı”, əla və yaxşı qiymətlərlə təhsil alan tələbələrə “həvəsləndirici”, kafi və digər müvəffəq qiymətlərlə təhsil alanlara isə “adi” təqaüd verilir.

2.12. Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasından dövlət hesabına qəbul olunan tələbələrə birinci tədris ilində imtahan sessiyasının orta bal göstəriciləri, növbəti tədris ilindən isə ÜOMG nəzərə alınmaqla, bu Qaydaya uyğun təqaüd təyin edilir.

2.13. Orta ixtisas təhsili müəssisələrinin dövlət hesabına olan yerlərinə ümumi orta və tam orta təhsil bazalarından qəbul olunan və imtahan verilən fənlər üzrə müəyyən edilmiş maksimal balın 85 faizini və daha çox bal toplayan tələbələrə birinci tədris ilinin birinci semestrində “əlaçı”, digərlərinə isə “adi” təqaüdü verilir.

2.14. Ali təhsil və orta ixtisas təhsili müəssisələrində dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil alan, həmçinin ödənişli əsaslarla qəbul olub, lakin sonradan mövcud qanunvericiliyə uyğun olaraq dövlət sifarişi statusu almış, akademik göstəricilərinə görə təqaüd qazanmış və eyni ixtisas üzrə bir təhsil müəssisəsindən digərinə köçürülən tələbələrə təqaüd (tədris planlarındakı fənn fərqlərindən asılı olmayaraq) köçürüldüyü təhsil müəssisəsində həmin ixtisas üzrə təqaüd almaq hüququ olan tələbələrin siyahısına uyğun verilir.

2.15. Tələbənin ali təhsil və ya orta ixtisas təhsili müəssisəsindən xaric olunduğu gündən dayandırılmış təqaüd həmin ixtisas üzrə ÜOMG sıralamasında növbəti yer tutan digər tələbəyə verilir.

2.16. Dövlət hesabına təhsil alan doktorantlara birinci təhsil ilində qanunvericiliklə müəyyən olunmuş məbləğdə təqaüd verilir. Növbəti təhsil illərində təqaüd illik attestasiyanın nəticələrinə görə təyin edilir. İllik attestasiyadan keçməyən doktorantın təqaüdü dayandırılır.

## 3. Peşə təhsili pilləsi üzrə təqaüdlərin təyin olunması və ödənilməsi

3.1. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, peşə təhsili müəssisələrinin əyani təhsilalma forması üzrə təhsil alan tələbələrinə təqaüd onların aralıq qiymətləndirmə (yarımil) nəticələrinə görə verilir.

3.2. Hər tədris ili üçün peşə təhsili müəssisələrində ixtisaslar üzrə təqaüdlərin sayı həmin ixtisaslar üzrə dövlət sifarişi və dövlət hesabına təhsilalanların sayına bərabər qəbul edilir.

3.3. Hər bir ixtisas üzrə təqaüdlərin sayı nəzərə alınmaqla, aralıq qiymətləndirmənin yekun nəticələrinə əsasən ən yüksəkdən başlayan sıralamaya uyğun növbəti yarımildə təqaüd alacaq tələbələrin siyahısı müəyyən edilir.

3.4. Təqaüd almaq hüququnu qazanmış tələbələrə təqaüdlər yarımil üzrə (birinci tədris ilinin birinci yarımili istisna olmaqla) aralıq qiymətləndirmənin yekun nəticələrinə əsasən modullar (fənlər) üzrə göstəricilərinə görə aşağıdakı kimi müəyyənləşdirilir:

3.4.1. ilk və texniki peşə təhsili səviyyələri üzrə:

3.4.1.1. modullar (fənlər) üzrə göstəriciləri 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən “5” olan tələbələrə “əlaçı” təqaüdü;

3.4.1.2. modullar (fənlər) üzrə göstəriciləri 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən “4” və “5” olan tələbələrə “həvəsləndirici” təqaüdü (bu halda ən azı bir moduldan (fəndən) akademik göstəricisi “5” olmalıdır);

3.4.1.3. modullar (fənlər) üzrə göstəriciləri 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən “3” - “5” olan tələbələrə “adi” təqaüd verilir;

3.4.2. yüksək texniki peşə təhsili səviyyəsi üzrə:

3.4.2.1. modullar (fənlər) üzrə göstəriciləri çoxballı sistemə (0-100 bal) əsasən 91-100 bal olan tələbələrə “əlaçı” təqaüdü;

3.4.2.2. modullar (fənlər) üzrə göstəriciləri çoxballı sistemə (0-100 bal) əsasən 71-100 bal olan tələbələrə “həvəsləndirici” təqaüdü (bu halda ən azı bir moduldan (fəndən) akademik göstəricisi 91 baldan yuxarı olmalıdır);

3.4.2.3. modullar (fənlər) üzrə göstəriciləri çoxballı sistemə (0-100 bal) əsasən 51-100 bal olan tələbələrə “adi” təqaüd verilir.

3.5. Hər bir tədris ili üçün ixtisas üzrə təqaüd almaq hüququ olan tələbələrin siyahısında sıralamada sonuncu yerə bir neçə iddiaçı olduğu halda, birinci tədris ilinin ikinci yarımilində ümumi orta və tam orta təhsil səviyyələri üzrə məzunların buraxılış imtahanında əldə etdiyi nəticə və ya orta ixtisas təhsili müəssisələrinə ümumi orta və tam orta təhsil bazasında qəbul imtahanından topladığı bal, sonrakı yarımillərdə isə əvvəlki yarımildəki aralıq qiymətləndirmənin nəticəsi yüksək olan tələbəyə üstünlük verilir.

3.6. Təqaüd almaq hüququ olan tələbələrin siyahısı müəyyənləşdirilərkən, təqaüdlərin müəyyən edilmiş sayı müvəffəq qiymət alanların sayından çox olduğu halda, qalan təqaüd yerləri pedaqoji şuranın qərarı ilə digər ixtisaslar üzrə təhsil alan və həmin yarımildə aralıq qiymətləndirmə üzrə yekun nəticəsi yüksək olan tələbələrə növbəti yarımilədək verilir.

3.7. Aralıq qiymətləndirmənin yekun nəticələrinə görə çoxballı sistem üzrə 50 baldan və ya 5 ballıq qiymət şkalası üzrə "3"-dən aşağı qiymət almış peşə təhsili müəssisələrinin tələbələrinə təqaüdün verilməsi dayandırılır. Akademik borclar ləğv edilən gündən təqaüdün verilməsi bərpa olunur.

3.8. Xəstəliyə və digər üzrlü səbəblərə görə aralıq qiymətləndirmədə iştirak etməyən tələbələrə akademik borcların ləğvi üçün ayrılan müddətin sonunadək təqaüdün verilməsi davam etdirilir.

3.9. Akademik borca görə təkrar kursda saxlanılan və təhsillərini müvəqqəti olaraq dayandıran tələbələrə təkrar təhsil ili dövründə təqaüd ödənilmir.

3.10. Peşə təhsili pilləsinin ilk və texniki peşə təhsili səviyyələrinə dövlət vəsaiti hesabına qəbul olunan tələbələrə müvafiq fənlər üzrə attestat qiymətlərinin orta göstəricisi "4,5" və daha çox olduqda, birinci tədris ilinin birinci yarımilində "əlaçı", digər halda isə "adi" təqaüd verilir.

3.11. Tam orta təhsil bazasından qəbul olunan və ilk peşə təhsili səviyyəsi üzrə təhsil alan tələbələrə müvafiq fənlər üzrə attestat qiymətlərinin orta göstəricisi "4,5" və daha çox olduqda, birinci tədris ilinin birinci yarımilində "əlaçı", digər halda isə "adi" təqaüd verilir.

3.12. Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə:

3.12.1. ümumi orta və tam orta təhsil səviyyələri üzrə məzunların buraxılış imtahanında əldə etdikləri nəticələrə əsasən peşə təhsili müəssisələrinə qəbul olunan tələbələrə həmin imtahanlarda topladıqları qiymətlərin orta göstəricisi “4,5” və daha çox olduqda, birinci tədris ilinin birinci yarımilində “əlaçı”, digər halda isə “adi” təqaüd verilir;

3.12.2. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən orta ixtisas təhsili müəssisələrinə ümumi orta və tam orta təhsil bazasında qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən peşə təhsili müəssisələrinə qəbul olunan və imtahan verilən fənlər üzrə müəyyən edilmiş maksimal balın 85 faizini və daha çoxunu toplayan tələbələrə birinci tədris ilinin birinci yarımilində “əlaçı”, digərlərinə isə “adi” təqaüd verilir.

3.13. Təkrar olaraq eyni peşə təhsili səviyyəsində təhsil alan tələbələrə dövlət hesabına təqaüd verilmir.

## Ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi)

## QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 29.0.10-1-ci maddəsinə əsasən hazırlanmışdır və ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların (bundan sonra -tələbələr) təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) məsələlərini tənzimləyir.

1.2. Bu Qaydalar tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının bütün ali təhsil müəssisələrinə şamil edilir.

1.3. Təhsil müəssisəsini, ixtisasını dəyişən və təhsil müəssisəsinə bərpa olunan şəxslər (dövlət sifarişi ilə təhsil alıb eyni ixtisas üzrə təhsil müəssisəsini, təhsilalma formasını dəyişən, akademik məzuniyyətdən qayıtdıqda əvvəllər təhsil aldığı ixtisas üzrə həmin müəssisədə kadr hazırlığı aparılmadığı halda ixtisasını dəyişən tələbələr istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər. Bu zaman tələbə təhsil alacağı tədris qrupunda təhsil alanlar üçün müvafiq ixtisas üzrə müəyyən edilən məbləğdə təhsil haqqı ödəyir.

1.4. Dövlət tərəfindən müəyyən edilmiş təhsil qrantı proqramı əsasında və təhsil sahəsində Azərbaycan Respublikası ilə xarici ölkələr arasında bağlanılmış müqavilələrə uyğun müəyyənləşdirilmiş kvota çərçivəsində Azərbaycan Respublikasında təhsil alan əcnəbi və vətəndaşlığı olmayan şəxslər akademik məzuniyyətdən qayıtdıqda təhsillərini ödənişsiz əsaslarla davam etdirirlər.

1.5. Tələbə təhsil müəssisəsini, ixtisasını, təhsilalma formasını dəyişdikdə, təhsil müəssisəsinə bərpa olunduqda və ya akademik məzuniyyətdən qayıtdıqda, onun əvvəllər qazandığı kreditlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.2.15-ci yarımbəndinin müddəaları gözlənilməklə nəzərə alınır.

1.6. Təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, təhsil müəssisəsinə bərpa olunma və ya akademik məzuniyyətdən sonra təhsilini davam etdirmə tələbənin əvvəl təhsil aldığı tədris dilinə (tədris dilinin ingilis dilindən ümumi təhsil pilləsində təhsil aldığı tədris dilinə və ya ümumi təhsil pilləsində təhsil aldığı tədris dilinin ingilis dilinə dəyişdirilməsi halları istisna olmaqla) uyğun aparılır.

## 2. Tələbələr tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi

2.1. Tələbələrin təhsil aldıqları müddətdə təhsil müəssisəsini, ixtisasını, təhsilalma formasını dəyişdirməsi onların müraciətləri əsasında yay tətili dövründə ali təhsil müəssisələri tərəfindən yalnız 1 (bir) dəfə həyata keçirilir.

2.2. Təhsil aldığı müddət ərzində təhsil proqramı ilə həmin dövr üçün müəyyən olunmuş kreditlərin ən azı ikidə bir hissəsini toplamayan tələbələrin təhsil müəssisəsini, ixtisasını və təhsilalma formasını dəyişdirməsinə yol verilmir.

2.3. Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsilində) səviyyəsində normativ təhsil müddətinin sonuncu tədris ilində və ya normativ təhsil müddətindən artıq (müddətli həqiqi hərbi xidmət dövrü daxil deyil) müddətdə təhsil alan tələbələrin təhsil müəssisəsini, ixtisasını, təhsilalma formasını dəyişdirməsinə yol verilmir.

2.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 230 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları"na uyğun olaraq ali təhsil müəssisəsinə qəbul imtahanlarında iştirak etmədən müsabiqə yolu ilə qəbul olunmuş subbakalavrların təhsil müəssisəsini və ixtisasını dəyişdirməsinə yol verilmir.

2.5. Ali təhsilin magistratura səviyyəsində təhsil alan tələbələrin ixtisaslarını (ixtisaslaşmasını) dəyişdirməsinə yol verilmir.

2.6. Ali təhsilin magistratura səviyyəsində normativ təhsil müddətindən artıq (müddətli həqiqi hərbi xidmət dövrü daxil deyil) müddətdə təhsil alan tələbələrin təhsil müəssisəsini və təhsilalma formasını dəyişdirməsinə yol verilmir.

2.7. Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsilində) səviyyəsində təhsil alan tələbələr tərəfindən ixtisasın dəyişdirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları" ilə müəyyən olunmuş eyni ixtisas qrupu daxilində aparılır.

2.8. Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsilində) səviyyəsində təhsil alan tələbənin (xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil alan tələbələr, eləcə də “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 26.5-ci və 26.5-3-cü maddələrinə əsasən ali təhsil müəssisəsinə müsabiqədənkənar qəbul olunanlar istisna olmaqla) təhsil müəssisəsini, ixtisasını, təhsilalma formasını dəyişdirməsi o şərtlə aparılır ki, həmin tələbənin tələbə qəbulu imtahanında topladığı bal ali təhsil müəssisəsinə qəbul olunduğu ildə dəyişmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas və təhsilalma forması üzrə minimal keçid balından (tələbənin qəbul olduğu il üçün Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə (bundan sonra – Nazirlik) razılaşdırmaqla müəyyən edilmiş müsabiqə şərtləri gözlənilməklə) çox olsun.

2.9. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil alan tələbənin təhsil müəssisəsinin, ixtisasının, təhsilalma formasının dəyişdirilməsi zamanı onun tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanının və ali təhsil müəssisəsinə qəbulu üçün verdiyi qabiliyyət imtahanının nəticələri nəzərə alınır.

2.10. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununun 26.5-ci maddəsinə əsasən ali təhsil müəssisəsinə müsabiqədənkənar qəbul olunan tələbələr ixtisaslarını yalnız Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş “Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı və onların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Qaydası”nın 2-ci hissəsində göstərilən ixtisaslara dəyişdirmək hüququna malikdirlər.

2.11. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununun 26.5-3-cü maddəsinə əsasən ali təhsil müəssisəsinə müsabiqədənkənar qəbul olunan tələbələrin ixtisasını dəyişməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 228 nömrəli Qərarı ilə təsdiq edilmiş “Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Şərtləri”nin 6-cı hissəsi nəzərə alınmaqla həyata keçirilir.

2.12. Ali təhsilin magistratura səviyyəsində təhsil alan tələbənin öz ixtisası (ixtisaslaşması) üzrə təhsil müəssisəsini

dəyişməsi o şərtlər aparılır ki, həmin tələbənin magistraturaya qəbul imtahanında topladığı bal, dəyişmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas (ixtisaslaşması) üzrə minimal keçid balından (tələbənin magistraturaya qəbul olunduğu il üzrə) çox olsun.

2.13. Ali təhsil müəssisəsinə tələbə qəbulu imtahanlarında (və ya qəbul imtahanlarının ikinci mərhələsində) iştirak etməyən (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 may tarixli 125 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları"nın 3.1.5-ci yarımbəndinə uyğun qəbul olunanlar istisna olmaqla) və ya iştirak edib xarici dövlətlərin ali təhsil müəssisələrinə tam orta təhsil haqqında dövlət sənədi əsasında qəbul olunan tələbələrin təhsil müəssisəsini, ixtisasını, təhsilalma formasını digər ali təhsil müəssisəsinə, ixtisasa, təhsilalma formasına dəyişdirməsi zamanı aşağıdakı göstəricilərdən biri nəzərə alınır:

2.13.1. beynəlxalq səviyyəli imtahanlarda və ya təhsil aldığı ölkədə ali təhsil müəssisəsinə qəbul olunmaq üçün keçirilən mərkəzləşdirilmiş qəbul imtahanlarında qazandığı nəticələr (bakalavriat səviyyəsi üçün SAT imtahanından yeni şkala üzrə ən azı 1200 bal (riyaziyyat üzrə ən azı 650 bal), YÖS imtahanlarında ən azı 75 faiz, ЕГЭ imtahanlarında 300 bal (hər fənn üzrə minimum 75 bal), AP – 3 və ya 4, İB diplom – 25-35, A-Level – C və ya B, ACT – 27 bal);

2.13.2. tələbənin ali təhsil müəssisəsinə qəbul olunduğu ildə həmin ali təhsil müəssisəsinin "Times Higher Education World University Rankings", "QS World University Rankings" və "Academic Ranking of World Universities (Shanghai Ranking)" beynəlxalq reytinq qurumlarının tərtib etdiyi sıralamaların ən azı birində ilk 500 pillədə yer alması.

2.14. Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət proqramları və ya hökumətlərarası təqaüd proqramları çərçivəsində təhsil alan Azərbaycan Respublikası vətəndaşlarının ölkənin ali təhsil müəssisələrinə dəyişməsi yalnız həmin proqramlar çərçivəsində təhsilinə xitam verildiyi halda həyata keçirilir.

2.15. Təhsilalma formasının dəyişdirilməsi tələbənin ali təhsil müəssisəsinə qəbul olduğu tədris ilində həmin ixtisas (ixtisaslaşma) üzrə müvafiq təhsilalma formasına qəbul aparıldığı halda həyata keçirilir.

2.16. Xüsusi təyinatlı ali təhsil müəssisəsinin tələbəsinin təhsil müəssisəsini, ixtisasını və təhsilalma formasını dəyişdirməsi yalnız həmin müəssisənin nizamnaməsində nəzərdə tutulduğu halda bu Qaydaların 2.1-2.15-ci bəndlərinin tələbləri nəzərə alınmaqla həyata keçirilir.

## 3. Təhsil müəssisəsindən xaric olunma

3.1. Tələbələr aşağıdakı hallarda ali təhsil müəssisəsindən xaric edilir:

3.1.1. öz arzusu ilə;

3.1.2. ali təhsil müəssisəsini dəyişdikdə;

3.1.3. ali təhsil müəssisəsinin daxili nizam-intizam qaydalarını kobud şəkildə (o cümlədən 3 ay davamlı olaraq dərslərdə iştirak etmədikdə və bu müddətdə ali təhsil müəssisəsi ilə əlaqə saxlamadıqda) və ya dəfələrlə pozduqda;

3.1.4. səhhətinə görə (həkim-məsləhət (və ya tibbi-həkim ekspertiza) komissiyasının arayışına (və ya qərarına) əsasən);

3.1.5. növbəti tədris ilinə qeydiyyatdan keçməyib həmin tədris ilinin payız semestrinin sonuna qədər ali təhsil müəssisəsi ilə əlaqə saxlamadıqda;

3.1.6. əcnəbi və ya vətəndaşlığı olmayan şəxsə müvəqqəti yaşamaq üçün icazənin verilmədiyi (müddətinin uzadılmadığı) və ya həmin icazənin ləğv edildiyi halda;

3.1.7. əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasının təhsil müəssisəsinə əyani təhsilalma formasında qəbulu rəsmiləşdirildiyi tarixdən 90 (doxsan) gün müddətində Azərbaycan Respublikasının ərazisində yaşamaq üçün icazənin verildiyini təsdiq edən sənədin surətini təhsil müəssisəsinə təqdim etmədikdə;

3.1.8. yekun dövlət attestasiyasından keçmədikdə (təqvim ilinin sonuna qədər yekun dövlət attestasiyasında iştirak etmədikdə).

3.2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ali təhsil müəssisəsindən

xaric edilmiş Azərbaycan Respublikasının vətəndaşı (qanunla müəyyən edilmiş hallarda hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil müəssisələrindən xaric edilərək müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə göndərilənlər istisna olmaqla) 6 ay müddətində ali təhsil müəssisəsinə bərpa olunmadıqda müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüquqlarını itirirlər və ümumi əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırılırlar. Möhlət hüququnu itirmiş şəxslər barədə rəsmi məlumat 7 (yeddi) gün müddətində ali təhsil müəssisəsi tərəfindən tələbələrin hərbi qeydiyyatda olduqları dövlət qurumuna verilir.

3.3. Ali təhsil müəssisəsindən xaric edilmiş şəxsə “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinə uyğun olaraq müvafiq arayış və şəxsi işində saxlanılan təhsil haqqında dövlət sənədinin əsli (olduğu halda) verilir, həmin sənədin surəti və xaric olunma haqqında əmrdən çıxarış isə ali təhsil müəssisəsində tələbənin şəxsi işində saxlanılır.

3.4. Xüsusi təyinatlı ali təhsil müəssisəsinin tələbəsinin həmin müəssisədən xaric olunması həmin müəssisənin nizamnaməsində nəzərdə tutulan əsaslarla həyata keçirilir.

## 4. Təhsil müəssisəsinə bərpa olunma

4.1. Ali təhsil müəssisəsindən xaric olunmuş şəxslər xaric olunma tarixindən 15 il müddətində yalnız əvvəl təhsil aldığı ali təhsil müəssisəsinə bərpa olunmaq üçün müraciət edə bilərlər. Bu zaman payız semestrində təhsil müəssisəsindən xaric olunan şəxslər növbəti payız semestrində (semestrlərində), yaz semestrində xaric olunan şəxslər isə yalnız növbəti yaz semestrində (semestrlərində) təhsil müəssisəsinə bərpa olunurlar.

4.2. Təhsil müəssisəsi (xüsusi təyinatlı ali təhsil müəssisəsi istisna olmaqla) yenidən təşkil edildiyi və ya ləğv olunduğu halda, sabiq tələbə təhsil aldığı ali təhsil müəssisəsinin hüquqi varisi olan və ya Nazirliyin müəyyən etdiyi ali təhsil müəssisəsinə bu Qaydaların 4.1-ci bəndində göstərilən müddət ərzində bərpa oluna bilər.

4.3. Təhsil müəssisəsinə bərpa olunma yay və qış tətili dövründə həyata keçirilir.

4.4. Bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsində bərpa zamanı şəxsin əvvəl təhsil aldığı ixtisas və təhsilalma forması üzrə kadr hazırlığı aparılmırsa, o, təhsil müəssisəsinə digər ixtisas və təhsilalma forması üzrə bərpa oluna bilər. Bu zaman tələbənin əvvəl təhsil aldığı və bərpa olunduğu ixtisaslar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları” ilə müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır.

4.5. Magistratura səviyyəsində bərpa zamanı şəxsin əvvəl təhsil aldığı ali təhsil müəssisəsində öz ixtisaslaşması və təhsilalma forması üzrə kadr hazırlığı aparılmırsa, o, öz təhsil müəssisəsinə ixtisası daxilində digər ixtisaslaşma və təhsilalma forması üzrə bərpa oluna bilər. Magistratura səviyyəsində bərpa zamanı şəxsin əvvəl təhsil aldığı ali təhsil müəssisəsində ixtisası üzrə kadr hazırlığı aparılmırsa, şəxs öz ixtisası, ixtisaslaşması və təhsilalma forması üzrə digər təhsil müəssisəsinə bu Qaydaların 2.12-ci bəndinin tələbləri nəzərə alınmaqla bərpa oluna bilər. Bərpa olunmaq istəyən şəxsin əvvəl təhsil aldığı ixtisas, ixtisaslaşma və təhsilalma forması üzrə heç bir təhsil müəssisəsində kadr hazırlığı aparılmırsa (ixtisas ləğv olunduğu halda), o, uyğun ixtisas və ixtisaslaşma üzrə (ixtisas və ixtisaslaşmaların uyğunluğu Nazirlik tərəfindən müəyyən olunur, bu zaman şəxsin əvvəl təhsil aldığı və bərpa olduğu ixtisasların eyni ixtisaslar qrupuna daxil olması nəzərə alınır) öz təhsil müəssisəsinə (təhsil müəssisəsi ləğv edildiyi halda digər təhsil müəssisəsinə) bərpa oluna bilər.

4.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 230 nömrəli Qərarı ilə təsdiq edilmiş “Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları”na uyğun olaraq ali təhsil müəssisəsinə qəbul imtahanlarında iştirak etmədən müsabiqə yolu ilə qəbul olunmuş subbakalavrlar təhsil

müəssisəsindən xaric olunduqda yalnız qəbul olunduğu ixtisas və təhsilalma forması (qəbul olunduqları ixtisas və təhsilalma formasında kadr hazırlığı aparılmadığı halda həmin təhsil müəssisəsində digər ixtisas və təhsilalma forması) üzrə bərpa oluna bilərlər.

4.7. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 26.5-ci maddəsinə əsasən ali təhsil müəssisəsinə müsabiqədənkənar qəbul olunan tələbələr təhsil müəssisəsindən xaric olunduqda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş "Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı və onların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Qaydası"nın 2-ci hissəsində göstərilən ixtisaslardan kənar ixtisasa bərpa üçün müraciət edə bilməzlər.

4.8. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 26.5-3-cü maddəsinə əsasən ali təhsil müəssisəsinə müsabiqədənkənar qəbul olunan tələbələr təhsil müəssisəsindən xaric olunduqda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 228 nömrəli Qərarı ilə təsdiq edilmiş "Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Şərtləri"nin 6-cı hissəsi nəzərə alınmaqla bərpa oluna bilərlər.

4.9. Təhsil müəssisəsinə bərpa barədə vətəndaşların müraciətlərinə bu Qaydaların 2.7-2.12-ci bəndlərinin tələbləri nəzərə alınmaqla baxılır.

4.10. Xüsusi təyinatlı ali təhsil müəssisələrindən səhhətinə görə xaric olunan şəxslər uyğun ixtisaslar üzrə Azərbaycan Respublikasının müvafiq mülki ali təhsil müəssisələrinə bu Qaydaların 4.1-ci bəndində göstərilən müddət ərzində bu Qaydaların 4.3-cü, 4.4-cü və 4.9-cu bəndlərinə uyğun olaraq bərpa oluna bilərlər. Digər səbəblərdən xüsusi təyinatlı ali təhsil müəssisələrindən xaric olunmuş şəxslərin mülki ali təhsil müəssisələrinə bərpası bu Qaydaların 4.1-ci bəndində göstərilən müddət ərzində bu Qaydaların 4.3-4.9-cu bəndlərinə uyğun olaraq aparılır.

4.11. Xüsusi təyinatlı ali təhsil müəssisələrindən xaric olunan şəxslər hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil

müəssisələrinin tələbələri üçün müəyyən edilmiş qəbul şərtlərinə cavab verdikləri halda, əvvəl təhsil aldıqları, yaxud digər hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil müəssisələrinə bərpa oluna bilərlər. Belə hallarda xüsusi təyinatlı ali təhsil müəssisələrinə bərpa həmin təhsil müəssisələrinin tabe olduqları qurumların razılığı ilə, bu Qaydaların 4.1-ci bəndinin ikinci cümləsində və 4.3-4.9-cu bəndlərində göstərilən qaydada, lakin ən çoxu müvafiq ixtisasın normativ təhsil müddətindən sonrakı 3 (üç) il ərzində (müddətli həqiqi hərbi xidmət dövrü nəzərə alınmamaqla) həyata keçirlir. Bu zaman xüsusi təyinatlı ali təhsil müəssisələrindən xaric olunaraq müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququnu saxlayan sabiq kursantlar həmin möhlət hüququnun qüvvədə olduğu müddətdə, müddətli həqiqi hərbi xidmətə göndərilən sabiq kursantlar müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra, hərbi və xüsusi rütbəli şəxslərlə komplektləşdirilən dəyişən heyətin sırasından xaric edilmiş digər şəxslər isə xidməti fəaliyyətlərini davam etdirdikləri müddətdə (qanunla müvafiq heyətlər üçün müəyyən edilmiş xidmətkeçmənin yaş hədləri daxilində) xüsusi təyinatlı ali təhsil müəssisələrinə bərpa olunurlar.

4.12. Bərpa olunmuş tələbənin şəxsi işi bərpa edilir. Bu şəxsi işə bərpa olunma haqqında əmrdən çıxarış, ölkə daxilində digər ali təhsil müəssisəsindən xaric edilmiş tələbələrin şəxsi işinə isə “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinə uyğun olaraq müvafiq arayış və xaric olunma haqqında əmrdən çıxarış əlavə edilir.

## 5. Tələbələrin təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi)

5.1. Tələbəyə (xüsusi təyinatlı ali təhsil müəssisələrinə münasibətdə yalnız həmin müəssisələrdə təhsil alan mülki şəxslərə) akademik məzuniyyət aşağıdakı hallarda və müddətə verilir:

5.1.1. müddətli həqiqi hərbi xidmətə çağırıldıqda – xidmət müddətinə (2 ildən çox olmamaqla), səfərbərlik üzrə hərbi xidmətə çağırıldıqda isə – xidmətdən tərxis edilənədək;

5.1.2. ailə vəziyyətinə görə (təhsil müəssisəsinin Elmi Şurası tərəfindən müəyyən edilmiş hallar üzrə) - 2 il müddətinədək;

5.1.3. səhhətinə görə – həkim-məsləhət (və ya tibbi-həkim ekspertiza) komissiyasının arayışında (və ya qərarında) göstərilən müddətə (2 ildən çox olmamaqla);

5.1.4. sosial məzuniyyətə çıxdıqda – qanunvericiliklə müəyyən olunmuş müddətə;

5.1.5. dövlət proqramları və təhsil sahəsində Azərbaycan Respublikası ilə xarici ölkələr arasında bağlanılmış müqavilələrə uyğun müəyyənləşdirilmiş kvota çərçivəsində Azərbaycan Respublikası vətəndaşları xarici ölkələrə təhsil almağa getdikdə – bakalavriat proqramlarında təhsil alanlara münasibətdə 1 (bir) ildən, magistratura proqramlarında təhsil alanlara münasibətdə 6 (altı) aydan çox olmamaqla;

5.1.6. xaricdə öz hesabına təhsil aldıqda – 1 (bir) il müddətinədək.

5.2. Akademik məzuniyyətdən qayıdan şəxslər tədris prosesinə növbəti tədris semestrindən (yaz və ya payız semestrindən) buraxılırlar. Akademik məzuniyyətdən qayıtdıqda əvvəl təhsil aldığı ali təhsil müəssisəsində öz ixtisası (magistraturada təhsil alanlara münasibətdə ixtisaslaşması) və təhsilalma forması üzrə kadr hazırlığı aparılmadıqda tələbə həmin müəssisədə mövcud təhsilalma formasında və ali təhsil müəssisəsi tərəfindən müəyyən olunan uyğun ixtisasda (magistraturada təhsil alanlara münasibətdə ixtisas daxilində digər ixtisaslaşmada) təhsilini davam etdirə bilər. Bu zaman bu Qaydaların 2.7-2.12-ci bəndlərinin tələbləri nəzərə alınır. Magistratura səviyyəsində akademik məzuniyyətdən qayıdan şəxsin əvvəl təhsil aldığı ixtisas, ixtisaslaşma və təhsilalma forması üzrə heç bir təhsil müəssisəsində kadr hazırlığı aparılmırsa, o, Nazirlik tərəfindən müəyyən olunan uyğun ixtisas və ixtisaslaşma üzrə (bu zaman şəxsin əvvəl təhsil aldığı və bərpa olduğu ixtisasların eyni ixtisaslar qrupuna daxil olması nəzərə alınır) öz təhsil müəssisəsində təhsilini davam etdirə bilər.

## 6. Tələbələr tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsinə bərpa olunması, habelə tələbələrin təhsilini

**müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) üçün müraciətin edilməsi**

6.1. Təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, təhsil müəssisəsinə bərpa olunma, habelə təhsilin müvəqqəti dayandırılması (akademik məzuniyyətin verilməsi) üzrə tələbələrin müraciətlərinin qəbulu və baxılması elektron qaydada Nazirliyin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin (bundan sonra – TMİS) altsistemi vasitəsilə həyata keçirilir.

6.2. Tələbə TMİS-in altsistemində təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilin müvəqqəti dayandırılması (akademik məzuniyyətin verilməsi) və ya akademik məzuniyyətdən qayıtması ilə bağlı seçimlərini edərək elektron ərizəni doldurur və təsdiq edir.

6.3. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci və 32.2-1-ci maddələrinin tələbləri nəzərə alınmaqla ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

6.3.1. təhsil müəssisəsinin və (və ya) ixtisasın dəyişdirilməsi halında:

6.3.1.1. akademik arayış (akademik transkript) - tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri (saatları) və qiymətləri (rəqəm və (və ya) hərflərlə) özündə əks etdirən sənəd (xarici dövlətin ali təhsil müəssisəsinin tələbəsinə münasibətdə mövcud qaydada leqallaşdırılmış və ingilis, rus və türk dillərindən başqa digər dillərdə olduğu halda Azərbaycan dilinə tərcümə olunmuş);

6.3.1.2. xarici dövlətin ali təhsil müəssisəsində aldığı kvalifikasıyaların qismən akademik tanınması haqqında şəhadətnamə (xarici dövlətin ali təhsil müəssisəsinin tələbəsinə münasibətdə);

6.3.1.3. beynəlxalq səviyyəli imtahanlarda qazanılan nəticələri və ölkə daxilində beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə imtahanların nəticələrini təsdiq edən sənədlər (xarici dövlətin ali təhsil müəssisəsinin tələbəsinə, tələbə qəbulu imtahanlarında iştirak etmədən müsabiqədənkənar ölkə ali təhsil müəssisəsinə bu imtahanların nəticələri ilə qəbul olunana münasibətdə);

6.3.1.4. ödənişli əsaslarla təhsil alanlar üçün təhsil haqqı borcunun olmaması barədə təhsil müəssisəsinin arayışı və ya təhsil haqqının ödənilməsi ilə bağlı müvafiq illər üzrə ödəniş qəbzləri (ingilis, rus və türk dillərindən başqa digər dillərdə olduğu halda mövcud qaydada Azərbaycan dilinə tərcümə olunmuş);

6.3.1.5. dövlət proqramları və ya hökumətlərarası təqaüd proqramlarından xaric olunma barədə arayış (dövlət proqramları və ya hökumətlərarası təqaüd proqramları çərçivəsində xaricdə təhsil alan Azərbaycan Respublikası vətəndaşlarına münasibətdə);

6.3.1.6. pasport və ya şəxsiyyətini təsdiq edən digər sənədlərin surəti (xarici ölkə ali təhsil müəssisəsindən köçürülən və Azərbaycan Respublikasında müvəqqəti yaşama icazəsi olmayan əcnəbi və vətəndaşlığı olmayanlara münasibətdə);.

6.3.2. təhsilalma formasının dəyişdirilməsi halında – müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququnun olması barədə arayış və ya hərbi bilet (qiyabi təhsilalma formasını əyani təhsilalma formasına dəyişmək istəyən kişi cinsli tələbələrə münasibətdə).

6.3.3. təhsil müəssisəsinə bərpa olunma halında:

6.3.3.1. akademik transkript və ya “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinə uyğun olaraq müvafiq arayış;

6.3.3.2. xarici dövlətin ali təhsil müəssisəsində aldığı kvalifikasıyaların qismən akademik tanınması haqqında şəhadətnamə (xarici dövlətin ali təhsil müəssisəsinin tələbələrinə münasibətdə);

6.3.3.3. beynəlxalq səviyyəli imtahanlarda qazanılan nəticələri və ölkə daxilində beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə imtahanların nəticələrini təsdiq edən sənədlər (xarici dövlətin ali təhsil müəssisəsinin tələbəsinə, tələbə qəbulu imtahanlarında iştirak etmədən müsabiqədənkənar ölkə ali təhsil müəssisəsinə bu imtahanların nəticələri ilə qəbul olunana münasibətdə);

6.3.3.4. dövlət proqramları və ya hökumətlərarası təqaüd proqramları çərçivəsində təhsil alanın həmin proqramlar çərçivəsində təhsilinə xitam verildiyini təsdiq edən arayış (xarici ölkələrin ali təhsil müəssisələrində dövlət proqramları və ya

hökumətlərarası təqaüd proqramları çərçivəsində təhsil alanlara münasibətdə);

6.3.3.5. ödənişli əsaslarla təhsil alanlar üçün təhsil haqqı borcunun olmaması barədə təhsil müəssisəsinin arayışı və ya təhsil haqqının ödənilməsi ilə bağlı müvafiq illər üzrə ödəniş qəbzləri (ingilis, rus və türk dillərindən başqa digər dillərdə olduğu halda mövcud qaydada Azərbaycan dilinə tərcümə olunmuş);

6.3.3.6. pasport və ya şəxsiyyətini təsdiq edən digər sənədlərin surəti (Azərbaycan Respublikasında müvəqqəti yaşama icazəsi olmayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərə münasibətdə).

6.3.4. təhsilin müvəqqəti dayandırılması (akademik məzuniyyətin verilməsi) halında - bu Qaydaların 5.1-ci bəndində göstərilən halları təsdiq edən sənədlər.

6.4. Elektron ərizə təsdiq edildikdən sonra məlumatların tamlığı üç iş günü müddətində ali təhsil müəssisəsi tərəfindən yoxlanılır. Şəxsi kabinetə ərizə və sənədlərin (məlumatların) natamamlığı və ya uyğunsuzluğu barədə məlumat göndərildikdən sonra ərizəçi üç gün müddətində onların tamlığını təmin edib təkrar elektron ərizəni təsdiq etməlidir.

6.5. Müraciətlərin qəbulu müddəti başa çatdıqdan sonra sənədlərin (məlumatların) tamlığı müəyyən olunan tələbələrin müraciətlərinə ali təhsil müəssisəsi tərəfindən 30 gün müddətində baxılaraq tələbəyə müvafiq məlumat (akademik borc yaranan fənlərin sayı və adları, təhsil haqqı məbləği, təhsil müddəti və s.) verilir və aşağıdakı qərarlardan biri qəbul edilir:

**6.5.1. təhsil müəssisəsinin və (və ya) ixtisasın dəyişdirilməsi üzrə:**

6.5.1.1. təhsil müəssisəsinin və (və ya xtisasın dəyişdirilməsindən imtina barədə (bu Qaydaların 1.6-cı bəndi və 2-ci hissəsi ilə müəyyən edilmiş tələblər ödənilmədiyi və ya bu Qaydaların 1.6-cı bəndi və 2-ci hissəsi ilə müəyyən edilmiş tələblər ödənildikdə, lakin tələbə bu Qaydaların 6.5-ci bəndində göstərilən məlumatlarla razılaşmadığı hallarda);

6.5.1.2. bu Qaydaların 1.6-cı bəndi və 2-ci hissəsi ilə müəyyən edilmiş tələblər ödənildiyi halda və tələbə bu Qaydaların 6.5-ci bəndində göstərilən məlumatlarla razılaşdıqda təhsil müəssisəsinin və (və ya) ixtisasın dəyişdirilməsi barədə;

**6.5.2. təhsilalma formasının dəyişdirilməsi üzrə:**

6.5.2.1. bu Qaydaların 1.6-cı bəndi və 2-ci hissəsi ilə müəyyən edilmiş tələblər ödənildiyi üçün təhsilalma formasının dəyişdirilməsi barədə;

6.5.2.2. bu Qaydaların 1.6-cı bəndi və 2-ci hissəsi ilə müəyyən edilmiş tələblər ödənilmədiyi üçün təhsilalma formasının dəyişdirilməsindən imtina barədə;

**6.5.3. təhsil müəssisəsindən xaric olunma üzrə:**

6.5.3.1. bu Qaydaların 3-cü hissəsinə uyğun olaraq təhsil müəssisəsindən xaric olunma barədə;

**6.5.4. təhsil müəssisəsinə bərpa üzrə:**

6.5.4.1. bu Qaydaların 1.6-cı bəndi və 4-cü hissəsi ilə müəyyən edilmiş tələblər ödənildiyi halda və tələbə bu Qaydaların 6.5-ci bəndində göstərilən məlumatlarla razılaşdıqda təhsil müəssisəsinə bərpa olunma barədə;

6.5.4.2. təhsil müəssisəsinə bərpa olunmadan imtina barədə (bu Qaydaların 1.6-cı bəndi və 4-cü hissəsi ilə müəyyən edilmiş tələblər ödənilmədiyi və ya bu Qaydaların 1.6-cı bəndi və 4-cü hissəsi ilə müəyyən edilmiş tələblər ödənildikdə, lakin tələbə bu Qaydaların 6.5-ci bəndində göstərilən məlumatlarla razılaşmadığı hallarda);

**6.5.5. akademik məzuniyyətin verilməsi üzrə:**

6.5.5.1. bu Qaydaların 5.1-ci bəndi ilə müəyyən edilmiş hallarda akademik məzuniyyətin verilməsi barədə;

6.5.5.2. bu Qaydaların 5.1-ci bəndi ilə müəyyən edilmiş hallar mövcud olmadıqda akademik məzuniyyətin verilməsindən imtina barədə;

**6.5.6. akademik məzuniyyətdən qayıtdığı halda:**

6.5.6.1. bu Qaydaların 5.2-ci bəndində müəyyən edilmiş tələblər ödənildikdə və tələbə bu Qaydaların 6.5-ci bəndində göstərilən məlumatlarla razılaşdıqda tədris prosesinə növbəti semestrdən buraxılması barədə.

6.5.6.2. bu Qaydaların 5.2-ci bəndində müəyyən edilmiş tələblər ödənildikdə, lakin tələbə bu Qaydaların 6.5-ci bəndində göstərilən məlumatlarla razılaşmadığı halda tədris prosesinə növbəti semestrdən buraxılmasından imtina barədə.

6.6. Qəbul edilmiş qərarlar tələbənin şəxsi kabinetinə göndərilir. İmtina barədə qərarlarda imtinanın səbəbləri əsaslandırılmalıdır.

6.7. Təhsil müəssisəsinin dəyişdirilməsi ilə nəticələnən qərarlar eyni zamanda həm elektron sənəd formasında, həm də kağız daşıyıcıda tələbənin əvvəl təhsil aldığı təhsil müəssisəsinə göndərilir.

6.8. Ali təhsil müəssisələri təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilin müvəqqəti dayandırılması (akademik məzuniyyətin verilməsi) ilə bağlı qərar qəbul edildikdən sonra 5 (beş) iş günü müddətində müvafiq əmrlər verir.

6.9. Təhsil müəssisəsi dəyişdiyi halda, tələbənin əvvəl təhsil aldığı ali təhsil müəssisəsi 3 (üç) iş günü müddətində akademik transkriptlə birlikdə tələbənin şəxsi işini onun dəyişdiyi ali təhsil müəssisəsinə göndərir. Şəxsi iş ali təhsil müəssisəsi tərəfindən tələbənin özünə və ya etibarnamə əsasında onun səlahiyyətli nümayəndəsinə verilə və ya poçt vasitəsilə göndərilə bilər.

## 7. Yekun müddəalar

7.1. Tələbələr tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə onların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) ilə bağlı ali təhsil müəssisələrinin qərarları ilə bağlı şikayətlərə baxılması üçün Nazirlik tərəfindən Apellyasiya Komissiyası yaradılır. Apellyasiya Komissiyasının tərkibi və səlahiyyətləri Nazirlik tərəfindən müəyyən edilir.

7.2. Ərizəçi Apellyasiya Komissiyasına "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 73.1-ci və 73.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərdə şikayət edə bilər. Müraciətə Apellyasiya Komissiyasında 10 (on) gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

7.3. Ərizəçi Nazirliyin Apellyasiya Komissiyasının hərəkətlərindən (hərəkətsizliyindən), eləcə də dəyişdirilmə, bərpa və xaric olunma, akademik məzuniyyətin verilməsi ilə bağlı ali təhsil müəssisəsinin qərarlarından inzibati və (və ya) məhkəmə qaydasında şikayət verə bilər.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

FORMA 1

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
___nömrəli________2014-cü il
tarixli əmri ilə təsdiq edilmişdir

_______________________________________________

(ali təhsil müəssisənin adı)

Təsdiq edirəm:

____________________

Ali təhsil müəssisəsinin rəhbəri

İxtisasın (ixtisaslaşmanın) şifri və adı____________

________________________________

Təhsil müddəti ____ il ( ____ semestr)

## TƏDRİS PLANI

(bakalavriat və magistratura səviyyələri üçün)

### I. TƏDRİS PROSESİNİN QRAFİKİ

| Tədris illəri | Sentyabr | Oktyabr | Noyabr | Dekabr | Yanvar | Fevral | Mart | Aprel | May | İyun | İyul | Avqust |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| I | | | | | | | | | | | | |
| II | | | | | | | | | | | | |
| III | | | | | | | | | | | | |
| IV | | | | | | | | | | | | |

ŞƏRTİ İŞARƏLƏR: NƏZƏRİ TƏLİM ☐ İMTAHAN SESSİYASI [::] TƏCRÜBƏ [X] YEKUN DÖLƏT ATTESTASİYASI [//] TƏTİL [=]

### II. TƏDRİS PROSESİNİN PLANI

| Sıra № | Fənnin kodu | Fənlərin adı | Kreditin sayı | Ümumi saatlar | Auditoriyadan kənar saatlar | Auditoriya saatları | O cümlədən: Mühazirə | O cümlədən: Seminar məşğələ | O cümlədən: Laboratori-ya | Prerekvizit (öncə tədrisi zəruri olan) fənnlərin şifri | Korekvizit (tədrisi paralel nəzərdə tutlan) fənnlərin şifri | Fənnin tədrisi nəzərdə tutulan semestr (payız və ya yaz) | Həftəlik dərs yükü |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |

Təcrübəyə və buraxılış işinə ayrılan müddətin 1 həftəsi – 1.5 kreditdir.

### III. TƏLİMƏ AYRILAN MÜDDƏT

| Tədris ili | Nəzəri təlim | İmtahan sesiyası | Təcrübə | Yekun dövlət attestasiyası | Tətil |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |
| Cəmi: | | | | | |

Təqdim edir:
Tədris işləri üzrə prorektor

FORMA 2

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
___nömrəli________2014-cü il
tarixli əmri ilə təsdiq edilmişdir

______________________________________________
(ixtisasın şifri və adı)
_________________________________ ixtisaslaşması üzrə
(ixtisaslaşmanın şifri və adı)

# TƏDRİS QRAFİKİ

bakalavriat (magistratura) səviyyəsi üçün

| Sıra № | Fənnin kodu | Fənnin adı | Kreditin sayı | Prerekvizit (öncə tədrisi zəruri olan) fənlərin şifri | Korekvizit (tədrisi paralel nəzərdə tutlan) fənlərin şifri | Fənnin tədrisi nəzərdə tutulan semestr (payız və ya yaz) |
|---|---|---|---|---|---|---|
| I tədris ili | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| II tədris ili | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| III tədris ili | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| IV tədris ili | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | Burada müvafiq tədris ilində nəzərdə tutulmuş tədris fəalliyyəti (kurs layihəsinin hazırlanması, istehsalat və pedaqoji təcrübələrin keçirilməsi və s.) göstərilir. | | | | |

FORMA 3

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
___nömrəli________2014-cü il
tarixli əmri ilə təsdiq edilmişdir

# İXTİSASIN (İXTİSASLAŞMA) ÜZRƏ İLLİK İŞÇİ TƏDRİS PLANI

______________________________________
ixtisasın (ixtisaslaşmanın) şifri və adı

TƏSDİQ EDİRƏM
TƏDRİS İŞLƏRİ ÜZRƏ
____________________
S.A.A.
«___»________20____il

Təhsil səviyyəsi – Bakalavr
– Magistratura

Təhsil müddəti – ______ il

______tədris ili

| Semestrlər | Sıra № | Fənnlərin adı | Auditoriya saatları Semestrlər üzrə bölgü | | | | Həftəlik auditoriya saatı | Kurs işi və ya kurs layihəsi | Tələbələrin sayı | Kreditin sayı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Cəmi | Mühazirə | Seminar (məşğələ) | Labaratoriya | | | | |
| Payız semestri (15 həftə) | 1. | | | | | | | | | |
| | 2. | | | | | | | | | |
| | 3. | | | | | | | | | |
| | ... | | | | | | | | | |
| | ... | | | | | | | | | |
| | ... | | | | | | | | | |
| | Cəmi: | | | | | | | | | |
| Dərslərin başlanması: | | 15 sentyabr | | | | | | | | |
| Qış imtahan sesiyası: | | Dekabrın 29-da fevralın 1-dək | | | | | | | | |
| Tətil: | | Fevralın 2-dən fevralın 15-dək | | | | | | | | |
| Yaz semestri (15 həftə) | 1. | | | | | | | | | |
| | 2. | | | | | | | | | |
| | 3. | | | | | | | | | |
| | ... | | | | | | | | | |
| | ... | | | | | | | | | |
| | ... | | | | | | | | | |
| | Cəmi: | | | | | | | | | |
| Dərslərin başlanması: | | 16 fevral | | | | | | | | |
| Yay imtahan sesiyası: | | İyunun 1-dən iyulun 5-dək | | | | | | | | |
| Təcrübə: | | Müddəti tədris planları ilə müəyyənləşdirilir (1 həftə - 1.5 kredit) | | | | | | | | |
| Tətil: | | Müddəti tədris planı ilə müəyyənləşdirilir (6-10 həftə) | | | | | | | | |

FORMA 4

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
___nömrəli________2014-cü il
tarixli əmri ilə təsdiq edilmişdir

# Tələbənin fərdi tədris planı

Fakültə: ______________________________

İxtisas: ______________________________

Tələbə: ______________________________________________________
Soyadı, adı, atasının adı

Tədris ili: ______________________________

Seçilmiş fənn müəllimlər:

I semester

| № | Fənnin kodu | Fənnin adı | Kreditin sayı | Kafedra | Müəllimin vəzifəsi, soyadı və adı | Qeyd |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |
| ... | | | | | | |
| ... | | | | | | |
| ... | | | | | | |
| ... | | | | | | |

II semester

| № | Fənnin kodu | Fənnin adı | Kreditin sayı | Kafedra | Müəllimin vəzifəsi, soyadı və adı | Qeyd |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |
| ... | | | | | | |
| ... | | | | | | |
| ... | | | | | | |
| ... | | | | | | |

Qeyd: tələbənin fərdi tədris planı növbəti tədris ilinin sentyabr ayının 10-dək dekanlığa təqdim olunmalıdır.

Tələbənin imzası ___________ Tərtib olunma tarixi ___________

Təsdiq edirəm:

Tyutor ___________ Fakültənin dekanı: ___________